RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 117 (8710) ÇƏRŞƏNBƏ AXŞAMI, 8 iyun 2021-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az

# Bütün inancların qovuşduğu müqəddəs məkan



Əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil edən Azərbaycan tarixboyu digər din və mədəniyyətlərə dözümlü münasibətilə seçilib. Respublikamızda hər zaman sinaqoq və kilsələr məscidlərlə yanaşı fəaliyyət göstərib, insanlar dini ayinlərini sərbəst yerinə yetiriblər və nümayiş etdirilən bu yüksək tolerantlıq ənənəsi bu gün də davam edir.

*Bax: səh. 6*

## Cəlilabad, Lənkəran, Masallı və Yardımlı rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin
### SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Cəlilabad, Lənkəran, Masallı və Yardımlı rayonlarının əhalisi 33550 nəfər olan 12 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 12 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğin 840,0 (səkkiz yüz qırx) min manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyun 2021-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə qırğız xalqı adından və şəxsən öz adımdan Sizi ürəkdən təbrik edirəm.

İlk növbədə, qardaş Azərbaycan xalqının sosial-iqtisadi və elmi-texniki inkişafda mühüm nailiyyətlərini, dünya arenasında layiqli imicini, regional və beynəlxalq məsələlərdə mühüm konstruktiv rolunu qeyd etmək istərdim.

Biz Qırğızıstan ilə Azərbaycan arasında əməkdaşlığın səviyyəsini yüksək qiymətləndiririk, birgə fəaliyyətimizin daha da möhkəmlənəcəyinə və dərinləşəcəyinə ümid bəsləyirik.

Əminəm ki, ölkələrimiz arasında əməkdaşlığın indiki dinamikası müxtəlif sahələrdə Qırğızıstan-Azərbaycan münasibətlərinin daha tam üzə çıxmasına kömək edəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, firavanlıq, yeni uğurlar, qardaş Azərbaycan xalqına əmin-amanlıq və sülh arzu edirəm. Ümidvaram ki, əməkdaşlığımız davam edəcək.

*Hörmətlə,*

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) adından zati-alinizə və ölkənizin xalqına salamlarımızı və təbriklərimizi çatdırmaqdan böyük şərəf duyuruq.

ICESCO üzv dövlətlərin qeyd etdiyi əlamətdar günlər də daxil olmaqla, bütün işlərdə onları dəstəkləməyə daim hazırdır. Biz bu əlamətdar günü Sizinlə və xalqınızla birlikdə qeyd edirik.

Hazırda və gələcək illərdə ICESCO-nun davamlı dəstəyinə və əməkdaşlığına əmin ola bilərsiniz.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramımızı qəbul edin.

*Dərin hörmətlə,*

***Salim bin Məhəmməd əl-MALİK,***
***ICESCO-nun Baş direktoru***

## Bakı möhtəşəm idman bayramının şahidi oldu

### Azərbaycan Qran-prisinin təşkili hər cür təqdirəlayiq idi

Dünyanın ən böyük idman tədbirlərindən biri olan "Formula-1" üzrə dünya çempionatının cari mövsümdə altıncı mərhələsi - Azərbaycan Qran-prisi artıq arxada qalmışdır. Srağagün Bakıda keçirilmiş yarışın qalibləri indi qazandıqları uğurun sevincini yaşayır, təbrikləri qəbul edirlər.

Məlum olduğu kimi, Azərbaycan Qran-prisi "Red Bull Racing Honda" komandasının üzvü Serxio Peresin qələbəsi ilə başa çatmışdır. Meksikalı pilot Bakı şəhər halqasında 51 dövrəni hamıdan tez başa vuraraq fəxri kürsünün zirvəsinə yüksəlmişdir. İkinci yeri "Aston Martin" komandasının almaniyalı pilotu Sebastyan Fettel tutmuşdur. "AlphaTauri" komandasının fransalı pilotu Pyer Qasli isə yarışı üçüncü pillədə bitirmişdir.

*Ardı 5-ci səh.*



## SƏNİN ƏDALƏTİNƏ.., DÜNYA!

**Düz 27 il dünyadan haqq-ədalət gözlədik!**

**Gözlədik ki, beynəlxalq qurum və təşkilatlar insafa gələcək, doğru mövqe tutacaq, beynəlxalq hüququ müdafiə edəcək, işğalçı ilə işğala məruz qalanı fərqləndirəcək, haqq səsimizi eşidəcək və ən nəhayət, bizi müdafiə edəcəkdir.**

**Gözlədik ki, BMT Təhlükəsizlik Şurası ərazilərimizin işğalı ilə bağlı qəbul etdiyi 4 qətnaməni yerinə yetirəcəkdir!**

**Gözlədik ki, ATƏT-in Minsk qrupu mandatına uyğun hərəkət edərək münaqişəni sülh yolu ilə həll edəcəkdir.**

*İnandıq və gözlədik!*

*Gözlədik və izlədik!*

*Gözlədik ki, "münaqişənin yalnız sülh yolu ilə həlli" nə vaxt və necə baş tutacaq!*

İzlədik ki, görək "ərazi bütövlüyü ilə millətlərin öz müqəddəratını təyin etməsi" prinsipi arasındakı seçim necə yoluna qoyulacaq!

**Beynəlxalq hüququn yerinə ikili standartların şahidi olduq!**

**Bəzi qətnamələri mürəkkəbi qurumamış yerinə yetirən BMT-nin Təhlükəsizlik Şurası bizə çatanda dişsiz, əlsiz-ayaqsız quruma çevrildi!**



**ATƏT-in Minsk qrupu "turist" və "yemək-içmək" səfərlərindən sonra bizə mövcud reallıqla barışmağı təklif etdi!**

*Xahiş etməkdən yorulduq!*

*İstəməkdən yorulduq!*

*Gözləməkdən yorulduq!*

*Amma dayanmadıq, durmadıq!*

*İqtisadi cəhətdən gücləndik!*

*Siyasi cəhətdən gücləndik!*

*Hərbi cəhətdən gücləndik!*

**Prezident İlham Əliyev ortaya möhkəm iradə qoydu!**

**Qətiyyətli mövqe qoydu!**

**Erməni qudurğanlığı həddini aşanda Müzəffər Ali Baş Komandanın dəmir yumruğu işə düşdü!**

**44 günlük zəfər müharibəsi göstərdi ki, münaqişənin əsl həlli varianı elə hərbi yolla imiş!**

**Başı əzilərək beli sındırılan düşmən müti quzuya dönərək kapitulyasiya sənədinə imza atdı!**

*Ardı 3-cü səh.*

## Vətəndaşı qorumaq milləti, dövləti qorumaqdır

Xalq həyatının hər anı dəyərlidir, amma bununla belə, baş verən hadisələrin mahiyyəti müəyyən bir vaxt aralığını tarixi mərhələyə çevirir. Bu fikrin həqiqi olduğunu təsdiqləmək üçün Azərbaycan xalqının son ilyarımdakı yaşantılarına, sadəcə, nəzər salmaq yetərlidir.

Xalqımızın sarsılmaz birliyi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli qərarları, ordumuzun qəhrəmanlığı sayəsində 44 gün sürən Vətən savaşında tarixi zəfər çalaraq müqəddəs Qarabağ ucalığını mənfur düşmən əsarətindən azad etdi. Xalq bir ağızdan "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" söylədi. Hətta bu zəfər işığında Vətənimizin tarixi hissəsi olan Zəngəzurdan keçərək Naxçıvana, oradan Türkiyəyə, sonra da dünyaya açılan dədə-baba yolumuz daha aydın göründü.

Savaş və zəfər möhtəşəmdir. Azərbaycan qüdrətlənərək bir zamanlar zorla alınmış bütün haqlarına sahib olacaq, düşmən bir daha torpaqlarımıza göz dikməyə cəsarət etməyəcək!

Adətən, torpağında müharibə gedən ölkələrdə həyat şəraiti ağırlaşır, insanlar bir çox problemlərlə üzləşirlər. Biz 30 il düşmənlə müharibə şəraitində yaşadıq. Lakin elə il olmadı ki, xalqımız öz içindən təklənsin, ölkəmiz inkişafdan qalsın. Milyondan çox qaçqın və məcburi köçkün bacı-qardaşlara sahib çıxmaq, Qarabağın sülh yolu ilə azad olunması üçün bütün diplomatik vasitələrə əl atmaqla yanaşı, Azərbaycan düzgün müəyyənləşdirilmiş strategiyanı mərhələlərlə icra etməklə, xüsusilə 2003-cü ildən başlayaraq dünyaya yeni, qüdrətli bir ölkə təqdim edə bilmişdir. Niyə? Çünki qarşıda vahid məqsəd olmuşdur: xalqın rifahını daim yüksəltmək, Azərbaycan vətəndaşını layiq olduğu rahatlıqda yaşatmaq!

*Ardı 7-ci səh.*

# Şəhid Əkbər Məsimovun nəşi Ağdaşda torpağa tapşırılıb





Vətən müharibəsində Murovdağ istiqamətində gedən döyüşlərdə itkin düşmüş Azərbaycan Ordusunun hərbçisi, şəhid Əkbər Yunis oğlu Məsimov anadan olduğu Ağdaş rayonunun Qaradeyin kəndində dəfn olunub.

AZƏRTAC xəbər verir ki, şəhidin dəfn mərasimində ailə üzvləri, yaxınları, hərbçilər, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağdaş rayon şöbəsinin, rayon icra hakimiyyətinin rəhbər şəxsləri, ictimaiyyət nümayəndələri, qazilər və gənclər iştirak ediblər.

Mərasimdə şəhidin ruhuna dualar oxunub, "Şəhidlər ölməz, Vətən bölünməz!", "Ən böyük əsgər, bizim əsgər!" şüarları səsləndirilib.

Şəhidin tabutuna bükülən üçrəngli Azərbaycan bayrağı ailəsinə verilib. Əkbər Məsimovun nəşi hərbi orkestrin müşayiəti ilə torpağa tapşırılıb, yaylım atəşi açılıb.

Məsimov Əkbər Yunis oğlu 1994-cü il oktyabrın 5-də Ağdaş rayonunun Qaradeyin kəndində anadan olub. Azərbaycan Ordusunda 4 il müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmət edib. O, Vətən müharibəsində Murovdağ istiqamətində gedən döyüşlərdə itkin düşüb. Azərbaycan Respublikası Baş Prokurorluğunun və Respublika Hərbi Prokurorluğunun rəhbərliyinin nəzarəti ilə həyata keçirilən intensiv əməliyyat-istintaq hərəkətləri nəticəsində Əkbər Məsimovun nəşi tapılaraq ailəsinə təhvil verilib.

# İtkin düşmüş daha bir hərbi qulluqçumuzun meyiti aidiyyəti üzrə təhvil verilib

İtkin düşmüş daha bir hərbi qulluqçu həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri nəticəsində tapılıb və şəxsiyyəti müəyyənləşdirilərək nəşinin aidiyyəti üzrə təhvil verilməsi üçün zəruri tədbirlər görülüb.

Bu barədə AZƏRTAC-a Hərbi Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Məlumatda bildirilib ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin itkin düşmüş hərbi qulluqçularının tapılaraq, şəxsiyyətinin müəyyən edilməklə doğmalarına təhvil verilməsi istiqamətində Azərbaycan Respublikası Baş Prokurorluğunun və Respublika Hərbi Prokurorluğunun rəhbərliyinin nəzarəti ilə intensiv əməliyyat-istintaq hərəkətləri həyata keçirilir.

Ötən il noyabrın 10-da üçtərəfli Bəyanat imzalandıqdan sonra Azərbaycan Respublikası Silahlı Qüvvələrinin itkin düşmüş hərbi qulluqçularının tapılaraq doğmalarına təhvil verilməsi istiqamətində intensiv əməliyyat-istintaq hərəkətləri həyata keçirilib. Həmin xüsusat Azərbaycan Respublikası Baş Prokurorluğunun və Respublika Hərbi Prokurorluğunun rəhbərliyi tərəfindən nəzarətə götürülüb. Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları ilə birgə həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri nəticəsində Müdafiə və Fövqəladə Hallar nazirliklərinin əməkdaşlarından ibarət axtarış qrupları itkin düşmüş hərbi qulluqçularımızın axtarılaraq tapılması istiqamətində müntəzəm iş aparıblar.

İtkin düşmüş daha bir hərbi qulluqçunun - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, əsgər Məsimov Əkbər Yunis oğlunun meyiti tapılaraq, şəxsiyyəti müəyyənləşdirilməklə aidiyyəti üzrə verilməsi üçün zəruri tədbirlər görülüb.

İtkin düşmüş digər hərbi qulluqçuların olduqları yerlərin müəyyənləşdirilməsi məqsədilə əməliyyat-istintaq tədbirlərinin icrası davam etdirilir. Eləcə də axtarış qrupları tərəfindən hazırda intensiv işlər aparılır.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

# Azərbaycanın və Türkiyənin xarici işlər nazirləri arasında telefon danışığı olub

İyunun 7-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Mevlüt Çavuşoğlu arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər bölgədə mövcud olan cari vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı həmçinin ikitərəfli əməkdaşlıq gündəliyi müzakirə olunub.

Nazirlər eyni zamanda qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparıblar.

# Ramiz Mahmud oğlu Məmmədov



Azərbaycan elmi ictimaiyyətinə ağır itki üz vermişdir. Coğrafiya sahəsində tanınmış alim, Dövlət mükafatı laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, texnika elmləri doktoru, Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun direktoru, professor Ramiz Mahmud oğlu Məmmədov 2021-ci il iyunun 7-də ömrünün yetmiş ikinci ilində vəfat etmişdir.

Ramiz Məmmədov 1950-ci il fevral ayının 4-də Gürcüstanın Qardabani rayonunun Qaracalar kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1967-1972-ci illərdə Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsində ali təhsil almış, 1974-1976-cı illərdə Moskva Okeanologiya İnstitutunda təcrübə keçmiş və 1977-1980-ci illərdə həmin institutun aspiranturasında oxumuşdur.

Əmək fəaliyyətinə 1973-cü ildə Azərbaycan Elmlər Akademiyasının Coğrafiya İnstitutunun Xəzər Elmi-Tədqiqat Stansiyasında kiçik elmi işçi kimi başlayan Ramiz Məmmədov 1980-1985-ci illərdə Azərbaycan Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyində laboratoriya və şöbə müdiri vəzifələrində çalışmış, 1986-1991-ci illərdə elmi fəaliyyətini Azərbaycan Elmlər Akademiyasının Geologiya və Coğrafiya institutlarında davam etdirmiş, 1991-ci ildən Coğrafiya İnstitutunun Xəzər Dənizi Problemləri Mərkəzinin müdiri, 1995-ci ildən isə həmin institutun elmi işlər üzrə direktor müavini işləmişdir. O, 2012-ci ildən ömrünün sonunadək Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunun direktoru olmuşdur.

Ramiz Məmmədov 1980-ci ildə okeanologiya ixtisası üzrə namizədlik, 1996-cı ildə hidrologiya, su ehtiyatları və hidrokimya ixtisası üzrə doktorluq dissertasiyaları müdafiə etmişdir. O, 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilmişdir.

Akademik Ramiz Məmmədovun tədqiqatlarının əsas istiqamətlərini Xəzər dənizinin aktual problemləri - iqlim dəyişmələrinin Xəzər dənizinə təsiri, habelə Xəzərin geofizikası və ekocoğrafiyası məsələləri təşkil etmişdir. Coğrafiyaşünas-alim, həmçinin Azərbaycanda səhralaşma prosesinin, landşaft planlaşdırılması və ətraf mühitin mühafizəsi problemlərinin əhatəli öyrənilməsinə xüsusi diqqət yetirmişdir.

Ramiz Məmmədov ölkəmizdə və onun hüdudlarından kənarda nəşr edilən və elmi ictimaiyyət tərəfindən maraqla qarşılanan 300-dək elmi əsərin müəllifidir. Məhsuldar elmi fəaliyyətlə yanaşı, yüksəkixtisaslı kadrların yetişdirilməsi işinə böyük qüvvə sərf edən alimin rəhbərliyi ilə coğrafiya sahəsində 20-yə yaxın fəlsəfə və elmlər doktoru hazırlanmışdır. Ramiz Məmmədov bir sıra beynəlxalq ekspedisiyaların iştirakçısı olmuş, mötəbər konfrans və simpoziumlardakı çoxsaylı çıxışları ilə Azərbaycan elmini layiqincə təmsil etmişdir.

Akademik Ramiz Məmmədovun səmərəli elmi və elmi-təşkilati fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, 2016-cı ildə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülmüş, 2020-ci ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Tanınmış alim, bacarıqlı elm təşkilatçısı və səmimi insan Ramiz Mahmud oğlu Məmmədovun xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**İlham Əliyev, Mehriban Əliyeva, Əli Əsədov, Sahibə Qafarova, Samir Nuriyev, Eldar Əzizov, Fərəh Əliyeva, Ramiz Mehdiyev, Akif Əlizadə, İbrahim Quliyev, Arif Həşimov, Rasim Əliquliyev**

# Akademik Ramiz Məmmədov II Fəxri xiyabanda dəfn edilib



Görkəmli coğrafiyaçı-alim, Dövlət mükafatı laureatı, Azərbaycan Coğrafiya Cəmiyyətinin prezidenti, AMEA-nın Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov II Fəxri xiyabanda dəfn edilib.

AZƏRTAC xəbər verir ki, vida mərasimində dövlət və hökumət rəsmiləri, akademiyanın bir sıra elmi müəssisə və təşkilatlarının rəhbərləri, elmi ictimaiyyətin nümayəndələri və mərhumun ailə üzvləri iştirak ediblər.

Alimin məzarı önünə Azərbaycan Respublikasının Prezidenti adından əklil qoyulmuşdu.

Məzarın ətrafına AMEA Rəyasət Heyəti və müxtəlif kollektivlər adından da əklillər düzülmüşdü.

Ramiz Mahmud oğlu Məmmədov 1950-ci il fevralın 4-də Gürcüstanın Qardabani rayonunun Qaracalar kəndində ziyalı ailəsində anadan olub. 1967-ci ildə orta məktəbi, 1972-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Fizika fakültəsini bitirib. Elmi fəaliyyətə 1973-cü ildə Azərbaycan SSR Elmlər Akademiyasının Coğrafiya İnstitutunun Xəzər Dənizi Problemləri Mərkəzində başlayıb.

Alim 1980-1985-ci illərdə Azərbaycan Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyinin Xəzər elmi-tədqiqat stansiyasının müdiri vəzifəsində çalışıb. 1985-ci ildə Azərbaycan SSR EA Rəyasət Heyətinin qərarı ilə Geologiya, 1989-cu ildə isə Coğrafiya İnstitutunda fəaliyyətini davam etdirib. 1991-ci ildə Coğrafiya İnstitutunun Xəzər Dənizi Problemləri Mərkəzinin müdiri, 1994-cü ildə isə bu müəssisənin elmi işlər üzrə direktor müavini vəzifəsində çalışıb. O, 2012-ci ildən AMEA-nın Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun direktoru idi. 2001-ci ildə coğrafiya ixtisası üzrə AMEA-nın müxbir üzvü, 2014-cü ildən isə AMEA-nın həqiqi üzvü idi. Alimin rəhbərliyi ilə 15 fəlsəfə, 4 elmlər doktoru hazırlanıb.

Akademik Ramiz Məmmədovun xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

# Həmkarlarımız və diplomatlar Azərbaycan jurnalistlərinin kədərini bölüşürlər




Bir sıra ölkələrdən olan həmkarlarımız Kəlbəcərdə xidməti fəaliyyətini yerinə yetirərkən mina partlaması nəticəsində AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimovun və AzTV-nin operatoru Sirac Abışovun həlak olmasından kədərləndiklərini bildirir, bu ağır gündə Azərbaycan mediasının yanında olduqlarını ifadə edirlər.

Media təmsilçiləri bu qanlı hadisə ilə əlaqədar AZƏRTAC-a başsağlığı teleqramları ünvanlayır, həmçinin telefonla zəng edərək günahsız insanların, o cümlədən jurnalistlərin hədəfə alınmasının yolverilməz olduğunu vurğulayırlar. Agentliyimizin xaricdəki müxbir məntəqələrinə də oxşar məzmunda zənglər edilir.

"İnsanlığa qarşı dəhşətli cinayətlər törədən erməni silahlı birləşmələrinin Qarabağın işğalına son qoyulmasından sonra da bu ərazilərdə günahsız insanları qətlə yetirməsini kəskin şəkildə qınayır və "Anadolu" Agentliyi olaraq bu ağır gündə sizin şəxsinizdə bütün Azərbaycan mediasının yanında olduğumuzu bildirirəm", - bu fikirlər qardaş Türkiyənin "Anadolu" Agentliyinin rəhbəri Serdar Karagözün AZƏRTAC-a göndərdiyi başsağlığı teleqramında yer alıb.

Türkiyənin TRT Televiziyasının Baş direktoru İbrahim Eren, Rusiyanın TASS Agentliyinin Baş direktorunun birinci müavini Mixail Qusman, Rusiya Jurnalistlər İttifaqının sədri Vladimir Sovolyov, "Exo Moskvı" radiostansiyasının baş redaktoru Aleksey Venediktov, TRT-nin Azərbaycan nümayəndəliyinin rəhbəri Murad Akkoç, Misirin "Aldiplomacy" informasiya portalının baş redaktoru Əşrəf Əbu Urafə, "Asiaelyom" Agentliyinin rəhbəri Əbubəkir Əl-Məcd, misirli jurnalist və politoloq Əhməd Tərabik ağır itki ilə əlaqədar AZƏRTAC-ın və AzTV-nin kollektivlərinə başsağlığı verib, həlak olan jurnalistlərin ailə üzvlərinin və yaxınlarının kədərini bölüşüblər.

Kədərimizə şərik çıxanlar arasında diplomatlar da var. Türkmənistanın və Əlcəzairin Azərbaycandakı səfirləri Mekan İşanqulıyev və Salima Abdelhak, həmçinin Əlcəzair Universitetinin Beynəlxalq hüquq fakültəsinin professoru, politoloq Yusif Xori və başqaları Azərbaycanın media ictimaiyyətinə dərin hüznlə başsağlığı veriblər.

Eyni zamanda, ölkəmizin Böyük Britaniya, Polşa, Ukraynadakı səfirləri Tahir Tağızadə, Nərgiz Qurbanova, Elmira Axundova və digərləri başsağlığı teleqramlarında və telefon zənglərində dərin kədər hisslərini dilə gətiriblər.

# Azərbaycanın diaspor jurnalistləri Kəlbəcərdə həlak olan jurnalistlərlə bağlı beynəlxalq ictimaiyyətə müraciət ediblər

Xaricdə yaşayan bir qrup azərbaycanlı jurnalist Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) və Azərbaycan Televiziyasının (AzTV) işğaldan azad olunmuş ərazilərdə xidməti vəzifələrini yerinə yetirən əməkdaşları Məhərrəm İbrahimov və Sirac Abışovun iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində minaya düşərək həlak olmaları ilə əlaqədar beynəlxalq ictimaiyyətə və beynəlxalq təşkilatlara müraciət ünvanlayıblar.

Bu barədə AZƏRTAC-a Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Müraciətdə deyilir: "Media nümayəndələri münaqişə bölgəsində, eləcə də müharibənin başa çatdığı ərazilərdə işləmək, tərəfsiz və obyektiv məlumat yaymaq, münaqişə zonası ilə digər tərəflər arasında körpü olmaq kimi önəmli rola malikdirlər. Böyük təəssüf hissi ilə diqqətinizə çatdırırıq ki, Azərbaycan Dövlət İnformasiya Agentliyinin və Azərbaycan Televiziyasının işğaldan azad olunmuş ərazilərdə xidməti vəzifələrini yerinə yetirən əməkdaşları Məhərrəm İbrahimov və Sirac Abışov iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində minaya düşərək həlak olublar.

Çəkiliş qrupunun olduğu nəqliyyat vasitəsinin hərəkətdə olarkən tank əleyhinə minaya düşməsi nəticəsində ümumilikdə üç nəfər həlak olub, dörd nəfər isə ağır bədən xəsarətləri alıb. Azad olunmuş ərazilərdə müharibə başa çatandan sonra 140 nəfərdən çox azərbaycanlı erməni işğalçılarının basdırdığı minaların qurbanı olub, onlardan 27-si həyatını itirib.

Baş verən faciə göstərir ki, Ermənistan hələ də regionda məkrli siyasətini davam etdirir, işğaldan azad olunmuş Azərbaycan ərazilərində müxtəlif yollarla minalanma prosesini həyata keçirir. Beləliklə, regionda mülki şəxslərin, xidməti vəzifələrini yerinə yetirən media mənsublarının həyatı üçün ciddi təhdidlər mövcuddur və belə vəziyyət biz jurnalistləri dərindən narahat edir.

Təəssüflə qeyd edirik ki, bir çox hallarda jurnalist hüquqlarının müdafiəçisi qismində çıxış edən beynəlxalq qeyri-hökumət təşkilatları, jurnalist birlikləri baş verən cinayət faktları ilə bağlı heç bir reaksiya vermir, susmaqda davam edirlər. Beynəlxalq insan hüquqları təşkilatlarının, jurnalist birliklərinin mülki şəxslərin, o cümlədən media təmsilçilərinin fəaliyyətinə əngəl törədən, həyatlarına son qoyan belə hüquq və qanun pozuntularına etinasız qalması bütün dünyada bu cür cinayət hallarının artmasına rəvac verə bilər.

Biz xaricdə yaşayan azərbaycanlı jurnalistlər olaraq BMT, Avropa Şurası da daxil olmaqla, beynəlxalq təşkilatlara, o cümlədən "Amnesty International" və "Human Rights Watch" insan haqları qurumlarına müraciət edərək bildiririk ki, Ermənistan silahlı qüvvələri işğal etdiyi və 44 günlük müharibə nəticəsində azad olunmuş Azərbaycan ərazilərinin mina xəritələrini verməməklə, eyni zamanda hazırda gizli yollarla ölkə ərazisinə daxil olaraq minalanma prosesi aparmaqla humanitar norma və prinsipləri kobudcasına pozur, beynəlxalq insan haqlarını tapdalayır. Ermənistanın bu cinayətkar əməlləri nəticəsində mülki şəxslərin, media təmsilçilərinin həyatına son qoyulduğunu bir daha diqqətə çatdırır, işğalçı dövlətdən 30 il əsarət altında saxladığı Azərbaycan ərazilərində basdırdığı minaların xəritələrinin açıqlanmasını və beynəlxalq qanunlarla müəyyən olunan sərhədlərimiz daxilində bu gün də həyata keçirdiyi minalanma prosesini dayandırmasını, beynəlxalq ictimaiyyətin, jurnalist təşkilatlarının baş verənlərə münasibət bildirməsini tələb edirik".

# Ümumdünya Mətbuat Şuraları Assosiasiyası Kəlbəcərdə həlak olan jurnalistlərlə bağlı bəyanat yayıb

Ümumdünya Mətbuat Şuraları Assosiasiyası AzTV-nin operatoru Sirac Abışovun və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) müxbiri Məhərrəm İbrahimovun mina partlayışı nəticəsində həlak olmaları ilə bağlı bəyanat yayıb.

AZƏRTAC Azərbaycan Mətbuat Şurasının da üzv olduğu qurumun bəyanatını təqdim edir.

- 2021-ci il iyun ayının 4-də Azərbaycanın Kəlbəcər rayonunda iki media əməkdaşı - AzTV-nin operatoru Sirac Abışov və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) müxbiri Məhərrəm İbrahimov mina partlayışı nəticəsində həlak olublar. Bu hadisə Ümumdünya Mətbuat Şuraları Assosiasiyası tərəfindən təəssüf və kədərlə qarşılanıb. Hər iki media təmsilçisinin doğmalarına, əzizlərinə və həmkarlarına dərin hüznlə başsağlığı veririk.

Media əməkdaşlarının xidməti vəzifələrini yerinə yetirərkən həlak olmaları, onlara qarşı hücumlar müasir dünyanın olduqca qorxunc və sarsıdıcı tendensiyasıdır. Çünki jurnalistlərlə birgə hücuma məruz qalan sözdür. Cəmiyyətin informasiya almaq hüququna qarşı sipər çəkilməsi tərəfimizdən hiddətlə qarşılanmaqdadır. Sirac Abışovun və Məhərrəm İbrahimovun həyatlarını itirmələrini məhz belə qiymətləndiririk. Bu qorxunc əməli törədənlərin tezliklə layiqli cəzalarını almalarını diləyirik. Bunun üçün isə beynəlxalq ictimaiyyətin məsələyə ciddi reaksiya verməsinə ehtiyac var.

Bizdə olan məlumata görə, Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında minalanmış ərazilər problemi xeyli dinc şəxsin həyatına son qoyub. O da məlumdur ki, Ermənistan minalanmış ərazilərin xəritəsini verməkdən imtina edir. M.İbrahimovun və S.Abışovun həlak olmaları göstərdi ki, jurnalistika da yaranmış xoşagəlməz durumdan zərər görür. Hər iki media təmsilçisi Kəlbəcərə özlərinin peşə vəzifələrini yerinə yetirmək üçün getmişdilər.

Bütün bunları nəzərə alaraq beynəlxalq ictimaiyyətə, media qurumlarına müraciət edir və bildiririk ki, XXI əsrdə bütövlükdə insanlığa qarşı yönəlmiş belə hərəkətlərin aradan qalxması üçün ciddi həmrəylik nümayişinə ehtiyac var. M.İbrahimovun, S.Abışovun, eləcə də mina partlayışından həlak olmuş digər azərbaycanlıların faciəli aqibəti hər kəsə siqnal olmalıdır. Hər kəs şüurlu şəkildə dərk etməlidir ki, Ermənistana mövcud istiqamətdə təzyiqin göstərilməsi şərtdir. Bizim üçün əsas olan xidməti vəzifəsini yerinə yetirən jurnalistlərin təhlükəsizliyidir. Çox arzu edərdik ki, bu təhlükəni yaradan problemə həssas yanaşılsın, onun aradan qaldırılmasındakı bütün üsul və vasitələrdən istifadə edilsin.

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyun tarixli Sərəncamına Əlavə*

## Cəlilabad, Lənkəran, Masallı və Yardımlı rayonlarında qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Rayonun adı | Quyuların sayı, ədəd | Yaşayış məntəqələrinin adı | Əhalinin sayı, nəfər |
|---|---|---|---|---|
| 1. | Cəlilabad | 6 | Boyxanlı kəndi | 1740 |
| | | | Cəfərxanlı kəndi | 1289 |
| | | | Xəlilabad kəndi | 2231 |
| | | | Komanlı kəndi | 3270 |
| | | | Təzəkənd kəndi | 3264 |
| | | | Üçtəpə kəndi | 8277 |
| 2. | Lənkəran | 1 | Qurumba kəndi | 1496 |
| 3. | Masallı | 4 | Hüseynhacılı kəndi | 1367 |
| | | | Köcəkli kəndi | 2192 |
| | | | Mahmudavar kəndi | 5714 |
| | | | Tüklə kəndi | 2214 |
| 4. | Yardımlı | 1 | Şiləvəngə kəndi | 496 |
| Cəmi: | | 12 | 12 | 33 550 |

# DTX və Baş Prokurorluq: Terrorçu silahlı birləşmənin daha 13 üzvü barəsində cinayət işi məhkəməyə göndərilib

Xəbər verildiyi kimi, Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatla atəşkəs elan edildikdən sonra Azərbaycan Respublikasının ərazisinə qanunsuz olaraq gizli yollarla keçməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən ötən il dekabrın 13-də keçirilmiş antiterror əməliyyatı nəticəsində tərk-silah edilmiş üzvləri barəsində DTX-nin İstintaq Baş idarəsində başlanmış cinayət işi üzrə ibtidai istintaq yekunlaşıb.

DTX-nin və Baş Prokurorluğun Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, aparılmış istintaq nəticəsində Ermənistan Respublikasının vətəndaşlarından ibarət bir qrup şəxsin qanunsuz şəkildə odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə edərək qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr yaratdıqları məlum olub. Onlar 2020-ci il noyabrın 26-27-də Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq mütəşəkkil dəstə halında keçməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik və digər ərazilərində döyüş mövqeləri tutaraq dekabrın 13-dək olan müddətdə ölkə ərazisində yerləşən müəssisə, idarə, təşkilatlara, habelə ayrı-ayrı şəxslərə silahlı basqınlar edib, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, Azərbaycan Respublikasının dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər terror əməlləri törədiblər.

Həmin silahlı dəstənin 14 nəfər üzvü barəsində cinayət işinin istintaqının yekunlaşdırılaraq, təsdiq edilmiş ittiham aktı ilə birlikdə baxılması üçün məhkəməyə göndərilməsi barədə ictimaiyyətə daha əvvəl məlumat verilib.

Hazırda sadalanan faktlarla bağlı qanunsuz silahlı birləşmənin digər üzvlərinin - Hovanesyan Haykaz Koryunoviç, Manukyan Varazdat Amuşavanoviç, Stepanyan David Stepanoviç, Tosunyan Levan Aşotoviç və qeyriləri olmaqla ümumilikdə 13 təqsirləndirilən şəxsin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1-ci, 214.2.3-cü (terrorçuluq, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə), 228.3-cü (mütəşəkkil dəstə tərəfindən qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və gəzdirmə), 279.2-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların tərkibində müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunmalarına dair cinayət işinin istintaqı yekunlaşdırılaraq Azərbaycan Respublikasının baş prokurorunun müavini tərəfindən təsdiq edilmiş ittiham aktı ilə birlikdə baxılması üçün məhkəməyə göndərilib.

Yuxarıda qeyd olunmuş silahlı birləşmənin üzvləri olan digər təqsirləndirilən şəxslər barəsində müvafiq cinayət işləri üzrə ibtidai istintaq yekunlaşdırılaraq iş materialları ilə tanışetmə həyata keçirilir.

# SƏNİN ƏDALƏTİNƏ.., DÜNYA!

*Əvvəli 1-ci səh.*

❖ ❖ ❖

İndi yenə üçtərəfli Bəyanatın bütün şərtlərinə əməl olunacağını gözləyirik!

Gözləyirik və izləyirik!

Erməni hələ də Zəngəzur dəhlizinin açılması ilə bağlı əməli işə keçməyib!

Hələ də minalanmış sahələrin xəritələrini məğlub olduğu tərəfə təqdim etməyib!

Hələ də sərhədlərin delimitasiya və demarkasiyasının dinc şəkildə baş tutmasına imkan yaratmır, tez-tez hoqqalar çıxarır!

Hələ də ərazilərimizə terrorçu-diversant qrupları göndərərək təxribatlar törətməyə, yeni ərazilərə minalar basdırmağa can atır!

Hələ də qisasçılıqdan "status"dan dəm vurur.

**Qalib sərkərdə İlham Əliyev dönə-dönə bəyan edib:**

**Dəmir yumruq hazır vəziyyətdədir!**

**Azacıq təhlükə hiss olunsa, dərhal işə düşəcəkdir!**

*Artıq səbrimiz daralmaq üzrədir!*

*Tarix və baş verənlər göstərir ki, ermənilərin başının sığallanması və ərköyünləşdirilməsi heç də onlara xeyir vermir!*

*Beynəlxalq hüquqa arxa çevirməsi də nəticədə problemin hərbi vasitələrlə həllinə gətirir.*

Yenə baş sığallanır!

Yenə beynəlxalq hüquqa və mövcud konvensiyalara əməl olunmur.

Azərbaycan bütün problemləri öz gücü ilə çözməyə qadirdir!

Bunu heç kəs unutmasın!

❖ ❖ ❖

Hərbi əməliyyatlar dayandırıldıqdan sonra 140-dan çox Azərbaycan vətəndaşı minaya düşüb, onlardan 27-si həlak olub!

- Ermənini əlimizdən alanlar, ermənidən mina xəritələrini alıb bizə vermirlər!
- Erməni terrorçularını geri qaytarmağımızı dönə-dönə dilə gətirənlər mina xəritələrinin verilməsi üçün bir dəfə də dil bulamayıblar!



- Erməni kilsəsinin böyründən bir daş qırıldığına görə şivən qoparanlar dağıdılan 63 məscidin adını belə tutmaq istəmirlər.

**Nə yaxşı biz gücləndik, torpağımızı işğaldan azad etdik!**

**Nə yaxşı Müzəffər Ali Baş Komandanımız İlham Əliyev 44 günlük Zəfər savaşında xalqımızın, viran qoyulan torpaqlarımızın qisasını dəmir yumruğu ilə düşməndən aldı!**

**Nə yaxşı hələ də güclüyük və bizi daim ayaqda saxlayan, bütün cəbhələrdə - hərbi, diplomatiya, informasiya müharibəsində qalib gəlməyi bacaran qüdrətli Sərkərdəmiz var!**

❖ ❖ ❖

22 fevral 1988-ci ildə Qarabağdakı separatçıların yaramaz əməllərinə qarşı etiraz əlaməti olaraq yürüşə çıxan iki ağdamlı gənc - Bəxtiyar və Əli ermənilər tərəfindən qətlə yetirildi.

O vaxta qədər Azərbaycan xalqına qarşı müxtəlif terror əməlləri törədənlər - Bakı metrosunda və dəmir yolunda, habelə Ağdam avtobusunda bomba partladaraq günahsız insanları qətlə yetirənlər açıq fəaliyyətə keçərək hərbi əməliyyatlara başladılar.

Yenə hədəf dinc əhali - qadın, qoca, uşaq oldu!

Xocalı, Qaradağlı, Bağanis - Ayrım və neçə-neçə digər soyqırımları törədildi, mülki əhali girov götürülərək min bir işgəncəyə məruz qaldı!

10 noyabr üçtərəfli razılaşmasına əsasən, məğlubiyyətə uğradılaraq təslim aktına qol çəkən düşmən aman dilədi!

Azərbaycan tərəfi hərbi əməliyyatları dayandırdı.

Düşmən Ağdam, Kəlbəcər və Laçından çıxmaq üçün əlavə vaxt istədi.

Humanizm prinsiplərindən çıxış edən Müzəffər Ali Baş Komandan İlham Əliyev əlavə vaxt da verdi:

Ancaq düşmən murdar əməllərindən geri durmadı:

- ərazilərimizi tərk edərkən evlərə, meşələrə od vurdu;
- ölkə ərazisinə dalbadal təxribatçı diversant qrupu göndərdi, 4 nəfər mülki vətəndaş öldürüldü;
- minalanmış sahələrin xəritəsi hələ də verilməyib;
- xüsusi diversant qrupu Azərbaycan ərazilərini gizlincə minalamaq üçün sərhədimizi pozdu, ifşa olunaraq 6 nəfər əsir götürüldü.

**Bütün bunlar onu göstərir ki, düşmən hərb meydanında darmadağın edildikdən sonra yenidən əvvəlki əməlinə, dinc əhaliyə qarşı terrora başlayıb!**

**Budur erməni vəhşiliyi, erməni vandallığı, erməni şərəfsizliyi və erməni nankorluğu.**

Peşə fəaliyyətini yerinə yetirən azərbaycanlı jurnalistlər - AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov, AzTv-nin operatoru Sirac Abışov və Kəlbəcər RİH-in əməkdaşı Arif Əliyev terrora məruz qoyularaq həyatdan məhrum edildilər!

*Nə vaxt kar qulaqlar açılacaq?*

*Nə vaxt kor gözlər görəcək?*

*Nə vaxt yatmış vicdanlar oyanacaq?*

Məhərrəm Əliyev və Sirac Abışov dinc peşə sahibi idilər.

İnsanların informasiya ilə təmininə xidmət göstərirdilər.

Silahları qələm və kamera idi!

Öz torpaqlarında, kiməsə qarşı təhlükə yaratmadan işləyirdilər!

Erməni vəhşiliyi, erməni terroru onları elə iş başındaca yaxaladı!

Həyatlarına son qoydu!

*Dünya isə sanki bu vəhşiliyi görmür!*

*Demokratiyanı, söz azadlığını bayraq edənlər hələ ortaya açıq və ədalətli mövqe qoymayıblar!*

*Kimi və nəyi gözləyirlər?*

Kor-kor, gör-gör!

Təəssüf ki, bəzən gözlü korlar da olur...

**Nə yaxşı ki zəif deyilik!**

**Nə yaxşı ki kimsədən asılı deyilik!**

**Nə yaxşı ki kifayət qədər iqtisadi və hərbi gücümüz var!**

**Nə yaxşı ki möhkəm, etibarlı dostlarımız var!**

**Nə yaxşı ki Azərbaycanın maraqlarını təmin etməklə müstəqil siyasət yürüdən qətiyyətli, uzaqgörən, möhkəm iradəli İlham Əliyev kimi Prezidentimiz var!**

Yoxsa əl-ayaq altında qalar, başıqapazlı olardıq!

Bunların isə qədrini bilməli, özümüzə arxalanmalı, çəkici bir zindana, bir nöqtəyə vurmağı bacarmalıyıq!

Bunu bizdən Vətən tələb edir!

*Bunu bizdən əsirlikdən yenicə xilas edilərək dirçəlişini gözləyən Qarabağ tələb edir!*

*Bunu bizdən Ulu Öndərimizin dünya azərbaycanlılarını birləşdirən yeni dövrün Azərbaycançılıq ideyası tələb edir!*

Bizləri ayaqda saxlayan, düşmən qarşısında, ikili standartlar dünyasında yenilməz edən bütün bunlardır!

Ədalətin budurmu, Dünya?

Sənin ədalətinə.., Dünya!

Sənin ikili standartına.., Dünya!

**Bəxtiyar SADIQOV**

## Baş Prokurorluq jurnalistlərin Kəlbəcər rayonunda şəhid olduqları mina partlayışı ilə əlaqədar məlumat yayıb

Azərbaycan Respublikasının Baş Prokurorluğu içərisində jurnalistlərin və dövlət qurumlarının əməkdaşlarının olduğu nəqliyyat vasitəsinin Kəlbəcər rayonu ərazisində minaya düşməsi ilə bağlı məlumat yayıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib: "Xəbər verildiyi kimi, 2021-ci il iyunun 4-də media və dövlət qurumlarının əməkdaşlarının olduğu "Kamaz" markalı sərnişin avtomobilinin Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində minaya düşməsi nəticəsində 3 nəfərin həlak olması və 4 nəfərin xəsarət alması faktı ilə əlaqədar Azərbaycan Respublikası Hərbi Prokurorluğunda cinayət işi başlanıb.

Təəssüf hissi ilə bildiririk ki, bəzi kütləvi informasiya vasitələrində və sosial media səhifələrində hadisənin baş verməsi ilə əlaqədar əsassız və dəqiqləşdirilməmiş məlumatlar yayılmaqdadır.

Odur ki, Baş Prokurorluq hadisənin baş vermə səbəbləri və mexanizmi barədə aşağıdakıları qeyd edir:

Aparılmış ilkin istintaqla müəyyənləşdirilib ki, hadisənin baş verdiyi əraziyə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nəzarəti tam təmin edildiyindən işğaldan azad olunduqdan sonra oraya düşmənin təxribat qruplarının sızması və orada mina basdırması istisna edilir.

Hadisə yerinə mütəxəssislərin iştirakı ilə keçirilmiş baxış zamanı 240x230 sm ölçülərində 97 sm dərinliyində çuxur və yararsız hala düşmüş "Kamaz" markalı sərnişin avtomobili aşkarlanıb.

Hadisənin başvermə səbəblərinə gəldikdə isə partlayış sahəsinin ölçülərinə və partlayış yerinin görünüşünə görə 60-97 sm dərinliyində basdırılmış tank əleyhinə bir mina olub. Partlayış yerində minanın heç bir qalığının aşkarlanmaması ilə müəyyən edilir ki, partlayış zamanı istifadə olunan mina plastmas, parça və ya korpussuz tipli tank əleyhinə minaya aid olub, fuqas (zirehdələn) tipli, tank və zirehli texnikaların tırtılına qarşı istifadə olunmaqla yollarda və texnikaların hərəkət edə biləcəyi yerlərdə qurulması üçün nəzərdə tutulub.

Partlamış minanın tank əleyhinə TM-62P2, TM-62P3, TM-62T və ya TM-62B tipli (eyni qrupa daxil olan) mina olması və üzərindən avtobusun keçməsi nəticəsində minanın işə düşməsi (partlaması) ehtimal edilir.

Həmçinin müəyyən edilib ki, erməni qanunsuz silahlı birləşmələri işğal zamanı həmin yoldan döyüş mövqelərinin təminat yolu kimi istifadə ediblər, Kəlbəcər rayonunu tərk edən zaman isə geri çəkildikləri həmin əraziləri minalayıblar.

Cinayət işi üzrə istintaq davam edir, gedişatı barədə ictimaiyyətə əlavə məlumat veriləcək".

## Rusiya Jurnalistlər İttifaqı Azərbaycan jurnalistlərinin mina partlayışı nəticəsində həlak olması ilə əlaqədar başsağlığı verib

Rusiya Jurnalistlər İttifaqı azərbaycanlı jurnalistlərin Kəlbəcər rayonu ərazisində mina partlayışı nəticəsində həlak olmaları ilə əlaqədar başsağlığı verib.

AZƏRTAC xəbər verir ki, təşkilatın saytında yerləşdirilmiş başsağlığı mətnində deyilir: "Azərbaycanın Kəlbəcər rayonunda mina partlayışı nəticəsində iki jurnalist həlak olub. Partlayış nəticəsində iki həmkarımız - telekanalın operatoru Sirac Abışov və AZƏRTAC İnformasiya Agentliyinin əməkdaşı Məhərrəm İbrahimov həlak olublar. Rusiya Jurnalistlər İttifaqı həlak olanların doğmalarına və yaxınlarına, həmkarlarına dərin hüznlə başsağlığı verir".

Союз журналистов России

## *Fransa Milli Assambleyasının deputatı:* "Fransa və beynəlxalq ictimaiyyət Ermənistandan minalanmış ərazilərin xəritələrini tələb etməlidir"

"Fransa və beynəlxalq ictimaiyyət Ermənistandan minaladığı ərazilərin xəritəsini verməyi tələb etməlidir. İkisi jurnalist olmaqla, 3 mülki vətəndaş Azərbaycanın Kəlbəcər rayonu ərazisində minaya düşərək həlak olublar. Mülki əhali münaqişənin girovu ola bilməz".

AZƏRTAC xəbər verir ki, bu barədə Fransa Milli Assambleyasının Yuxarı Sena (Hauts-de-Seine) seçki dairəsindən seçilmiş deputatı Frederik Düma "Twitter" səhifəsində Kəlbəcər rayonunda mina partlaması nəticəsində həlak olmuş azərbaycanlı jurnalistlərlə bağlı paylaşımında yazıb.

Fransız deputat barışıq üçün beynəlxalq hüquqa riayət etməyin vacibliyini vurğulayıb.

F.Düma "Twitter" səhifəsində jurnalistlərin erməni minalarının qurbanı olması ilə bağlı paylaşmalarına ölkə Prezidenti Emmanuel Makronu da təq edib.




## *Bob BLƏKMƏN:* "Ermənistan tərəfi minalanmış ərazilərin xəritələrini dərhal Azərbaycan tərəfinə təqdim etməlidir"

İşğaldan azad olunmuş Kəlbəcər rayonunda tank əleyhinə minanın partlaması nəticəsində ikisi jurnalist olmaqla, 3 nəfər mülki şəxsin həlak olması xəbəri məni dərindən kədərləndirib. Mən Azərbaycan xalqına və həlak olanların yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

Bu sözləri Böyük Britaniya parlamentində Azərbaycan üzrə Qrupun sədri, deputat Bob Bləkmən AZƏRTAC-ın müxbirinə verdiyi müsahibəsində deyib.

"Hərbi əməliyyatların sonlanmasına baxmayaraq, hələ də insanların həyatını itirməsi üzücüdür. Gələcəkdə bu kimi insan itkisinin qarşısının alınması üçün Ermənistan tərəfi minalanmış ərazilərin xəritələrini dərhal Azərbaycan tərəfinə təqdim etməlidir", - deyə o əlavə edib.



Bob Bləkmən həmçinin bu kimi halların bölgədə davamlı sülhün bərqərar olunmasına maneə törətdiyini qeyd edərək beynəlxalq ictimaiyyətin baş verənlərə lazımi reaksiya verəcəyinə ümid etdiyini bildirib.

## İordaniyalı jurnalist ermənilərin basdırdığı minanın partlaması nəticəsində azərbaycanlı həmkarlarının qətlini pisləyir

Dünya KİV-ləri, jurnalistlər, media işçiləri, yazarlar azərbaycanlı jurnalistlərin erməni diversantları tərəfindən basdırılan minaya düşərək şəhid olması barədə xəbərdən kədərləndiklərini bildirir və qardaş Azərbaycan xalqına başsağlığı verirlər.

AZƏRTAC xəbər verir ki, bu sözləri məşhur iordaniyalı jurnalist akademik Mərvan Sudah "əl-Anbat" qəzetində dərc edilmiş "Jurnalistikanın və jurnalistlərin şəhidləri" adlı məqaləsində deyib.

Müəllif erməni silahlı qüvvələri tərəfindən törədilən bu qanlı hadisənin Beynəlxalq Hüququn və Beynəlxalq Humanitar Hüququn tələblərini pozduğunu, eləcə də Qarabağda atəşkəs barədə üçtərəfli Bəyanata zidd olduğunu vurğulayıb.

Məqalədə hadisə barədə məlumat verilir və qeyd edilir ki, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) və Azərbaycan Dövlət Televiziyasının (AzTV) işğaldan azad olunmuş ərazilərdə çəkiliş aparan əməkdaşları iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində minaya düşüblər. İçərisində jurnalistlərin olduğu nəqliyyat vasitəsinin yolda tank əleyhinə minaya düşməsi nəticəsində AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov və AzTV-nin operatoru Sirac Abışov, həmçinin onları müşayiət edən Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olublar. Ağır yaralanan 4 nəfər xəstəxanaya yerləşdirilib.

Mərvan Sudah məqaləsində Azərbaycan XİN-in hadisə ilə bağlı bəyanatına da yer verib.

İordaniyalı jurnalist bu yaxınlarda Azərbaycanın Kəlbəcər rayonu ərazisinə keçməyə və diversiya-kəşfiyyat əməliyyatları həyata keçirməyə cəhd etmiş bir qrup erməni diversantının ələ keçirildiyini oxucuların diqqətinə çatdırır və Ermənistanı bununla regionda yaranmış kövrək sülhü və sabitliyi təhlükə altına almaqda ittiham edir.

Müəllif jurnalistlərin hədəfə alınması və qətlə yetirilməsi ilə nəticələnən bu alçaq cinayəti pisləyir, cinayətkarların dərhal müəyyən edilib cəzalandırılmasına çağırır.

Müəllifin məqaləsini "Nabd", "Cuheynə nyuz", "əş-Şaab nyuz" xəbər portalları da nəşr edib.

## Nizami Gəncəvi Beynəlxalq Mərkəzi azərbaycanlı jurnalistlərin minaya düşərək həlak olmaları ilə bağlı bəyanat yayıb

"Nizami Gəncəvi Beynəlxalq Mərkəzi jurnalistlərə, media mütəxəssislərinə və aidiyyəti şəxslərə silahlı qarşıdurma vəziyyətində olduğu kimi, hücumları qınayır və bu kimi təcrübələrə son qoymaq üçün bütün tərəflərə səslənir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Azərbaycan jurnalistlərinin minaya düşərək həlak olmaları ilə bağlı yaydığı bəyanatda yer alıb.

Bəyanatda qeyd olunub ki, silahlı münaqişə şəraitində mülki şəxslərin və digər qorunan şəxslərin qəsdən hədəfə alınması və beynəlxalq humanitar və insan hüquqlarının sistemli və açıq şəkildə pozulması beynəlxalq sülh və təhlükəsizlik üçün bir təhlükə ola bilər.

Kəlbəcər rayonunda minanın partlaması nəticəsində iki azərbaycanlı jurnalist və bir rəsmi həlak olub. Yük maşınının tank əleyhinə mina tərəfindən partlaması nəticəsində daha dörd nəfər yaralanıb. Azərbaycanda mina partlayışı qurbanlarının ailələrinə dərin hüznlə başsağlığı veririk.

Minaların mülki əhali üçün davamlı təhlükə yaratdığının və münaqişədən sonra bərpa işlərinə mane olduğunun qeyd edildiyi müraciətdə bildirilib: "BMT və ATƏT-in Minsk qrupu həmsədrlərini Ermənistan tərəfindən minalanmış bölgələrinin xəritələrinin təmin edilməsini asanlaşdırmağa və sürətləndirməyə çağırırıq. Bu, jurnalistlər də daxil olmaqla çoxlu sayda insanın həyatı üçün təhlükənin aradan qaldırılmasına ciddi kömək edə bilər. Bu dəstək eyni zamanda bölgədə ədalət, sülh, təhlükəsizlik və sabitliyin bərqərar olmasına böyük töhfə ola bilər".

Qeyd edək ki, bəyanatı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Dünya Bankının sabiq vitse-prezidenti İsmail Serageldin, Latviyanın sabiq Prezidenti Valdis Zatlers, Mavritaniyanın sabiq Prezidenti Amina Qurab-Fakim, Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliev, Xorvatiyanın sabiq Prezidenti İvo Yosipovic, Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumdziya, Moldovanın sabiq Baş naziri Kirill Qaburiç, Pakistanın sabiq Baş naziri Şavkat Əziz, ICESCO-nun keçmiş baş direktoru Əbdüləziz əl-Tuveycri, Fransa Senatının üzvü Natali Qule, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin baş katibi Rövşən Muradov imzalayıblar.

## Amerika Azərbaycanlılarının Koordinasiya Şurası aparıcı media orqanlarını Ermənistana etiraz etməyə çağırıb

ABŞ-ın müxtəlif əyalətlərindən Amerika Azərbaycanlılarının Koordinasiya Şurasında (ACCA) birləşən diaspor təşkilatlarının liderləri Kəlbəcərdə azərbaycanlı jurnalistlərin faciəli şəkildə həlak olması ilə bağlı nüfuzlu KİV-lərə müraciət ediblər.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, "USA Today", BBC, CNN, "The New York Times", "The Guardian", "Washington Post", "Herald", "Newsweek", "Tribune" kimi media orqanlarına ünvanlanan müraciətdə deyilir: "10 noyabr 2020-ci il tarixli üçtərəfli sülh razılaşmasına baxmayaraq, Ermənistan bu müqaviləni və beynəlxalq öhdəliklərini kobud şəkildə pozmaqda davam edir. Azərbaycanın israrlı tələblərinə baxmayaraq, Ermənistan işğaldan azad edilmiş ərazilərdə yerləşdirdiyi mina xəritələrini təhvil verməkdən imtina edir. Üstəlik, Azərbaycanın yaşayış məntəqələrində və yollarında yeni minalar yerləşdirilməsi kimi məkrli məqsədlə diversant qruplarını ölkəmizin ərazilərinə göndərir. Bu məkrli və qeyri-insani siyasətin nəticəsində indiyədək 100-dən çox insan həlak olub və yaralanıb, iyunun 4-də isə azərbaycanlı jurnalistlər faciəli şəkildə həlak olublar, bir neçə şəxs yaralanıb".



Müraciəti Azərbaycan-Amerika İnteqrasiya Mərkəzinin rəhbəri Samir Novruzov, Azərbaycan-Nyu York Assosiasiyasının rəhbəri Ercan Yerdələnli, Amerika Orta Qərb Ştatları üzrə Azərbaycan Mərkəzinin rəhbəri Fərid Məmmədov, Amerika-Azərbaycan Qadınlar Assosiasiyasının rəhbəri Münəvvər Vahabova, Nyu York Mədəniyyət Mərkəzinin rəhbəri Telman Cəlil, Yuta-Azərbaycan İcması nümayəndəsi Əsmər Qarayeva, Florida-Azərbaycan Cəmiyyətinin rəhbəri Esmira Bayramova, Azərbaycan Dostluq Təşkilatının rəhbəri Adika İqbal, Minnesota-Azərbaycan Assosiasiyasının rəhbəri Günel Rallis, Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyətinin rəhbəri Nərgiz Əliyarlı və Şimali Amerika Gənclər Təşkilatının rəhbəri Aytac Qasımova imzalayıblar.

## Çin mediası azərbaycanlı jurnalistlərin mina partlaması nəticəsində həlak olmaları barədə xəbərlər yayıb

Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) müxbiri Məhərrəm İbrahimov və Azərbaycan Dövlət Televiziyasının (AzTV) operatoru Sirac Abışov da daxil olmaqla 3 nəfərin həlak olması ilə nəticələnən mina partlaması hadisəsi Çinin kütləvi informasiya vasitələrinin də diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, Çinin rəsmi xəbər agentliyi "Sinxua"nın hadisə haqqında xəbərində Azərbaycanın Qarabağ bölgəsinin qərbindəki Kəlbəcər rayonunda tank əleyhinə minanın partlaması nəticəsində ölənlər və yaralananlar olduğu bildirilib. Qeyd olunub ki, hadisə Ermənistanla 6 həftə davam edən və ötən ilin noyabrında başa çatan müharibədən sonra Azərbaycana qaytarılan rayonun Susuzluq kəndində baş verib.

Agentlik Azərbaycanın Daxili İşlər Nazirliyinin və Baş Prokurorluğunun birgə məlumatına istinad edərək, AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimovun və AzTV-nin operatoru Sirac Abışovun, habelə yerli səlahiyyətli şəxs Arif Əliyevin partlayış nəticəsində həlak olduğunu, 4 nəfərin isə yaralandığını qeyd edib. Bildirilib ki, səlahiyyətli qurumlar hadisə ilə əlaqədar cinayət işi açıblar.

"Sinxua" Agentliyinin həmin xəbərini çap versiyası və rəqəmsal platformalar üzrə 350 milyondan çox oxucusu olan nüfuzlu "China Daily" qəzeti, Çin Dövlət Şurasının (Nazirlər Kabineti) İnformasiya İdarəsinin tabeliyində olan "china.org.cn" onlayn nəşri də yayıb. Bundan başqa, bir neçə digər xəbər portalları da hadisə barədə informasiyalar təqdim ediblər.

Qeyd edək ki, AZƏRTAC iyunun 4-də Kəlbəcər rayonunda Azərbaycan jurnalistlərinin Ermənistan tərəfindən basdırılmış minaya düşərək həlak olması və yaralanması ilə əlaqədar üzvü olduğu beynəlxalq media təşkilatlarına - Dünya Xəbər Agentlikləri Konqresinin (NAWC), Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA), Avropa Xəbər Agentlikləri Alyansının (EANA), İslam Əməkdaşlıq Təşkilatı ölkələrinin Milli Xəbər Agentlikləri Birliyinin (UNA), Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Ərəb Ölkələri Xəbər Agentlikləri Təşkilatının (FANİA), bu təşkilatlara üzv olan agentliklərin və digər beynəlxalq media qurumlarının rəhbərlərinə müraciət edib. AZƏRTAC dünya mediasının, beynəlxalq və regional jurnalist təşkilatlarının rəhbərlərini Ermənistanın davam etməkdə olan təxribatçı hərəkətlərini qətiyyətlə pisləməyə, etiraz səslərini ucaltmağa çağırıb.

### Mərakeş və Mavritaniya KİV-ləri AZƏRTAC-ın beynəlxalq və regional media qurumlarına müraciətini yayıblar

Mərakeş və Mavritaniyanın xəbər portalları AZƏRTAC-ın beynəlxalq media qurumlarına "Azərbaycanın azad olunmuş torpaqlarında jurnalistlər minaya düşüblər" sərlövhəli müraciətini yayıblar.

AZƏRTAC xəbər verir ki, Mərakeş və Mavritaniya KİV-ləri Azərbaycanın Ermənistandan minalanmış ərazilərin xəritəsini almaq üçün bütün mümkün üsullardan istifadə etdiyini bildiriblər. Ermənistan isə nəinki onları təqdim etməyib, üstəlik, yeni minaları basdırmaq üçün erməni təxribatçı qruplarını göndərib. Bu qeyri-insani hərəkətlər nəticəsində müharibə başa çatdıqdan sonra 7 ay ərzində 120-dən çox insan öldürülüb və yaralanıb.

Məlumatda həmçinin AZƏRTAC-ın üzv olduğu beynəlxalq media qurumlarına - Dünya Xəbər Agentlikləri Konqresinin (NAWC), Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA), Avropa Xəbər Agentlikləri Alyansının (EANA), İslam Əməkdaşlıq Təşkilatı Ölkələrinin Milli Xəbər Agentlikləri Birliyinin (UNA), MDB-nin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Ərəb Ölkələri Xəbər Agentlikləri Təşkilatının (FANİA), bu təşkilatların üzvü olan agentliklərin və digər beynəlxalq media qurumlarının rəhbərlərinə iyunun 4-də Azərbaycan jurnalistlərinin Kəlbəcər rayonunda Ermənistan tərəfindən basdırılmış minaya düşərək həlak olması və yaralanması ilə əlaqədar müraciətinin mətni də yerləşdirilib.



2021-ci il
"Nizami Gəncəvi ili"dir

*Ucalmaq istəsən bir kamala çat,*
*Kamala ehtiram göstərir həyat!*



# Azərbaycan regionun dayanıqlı inkişafı üçün yeni perspektivlər açır

## Magistr və doktorantların III Beynəlxalq Elmi Konfransı Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuşdur





Xəbər verildiyi kimi, iyunun 4-də Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), İqtisadiyyat Nazirliyi, Təhsil Nazirliyi və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı, PAŞA Holdinqin baş sponsorluğu ilə iqtisadiyyat və idarəetmə sahəsində magistr və doktorantların III Beynəlxalq Elmi konfransı keçirilmişdir.



Nizami Gəncəvinin 880 illiyi münasibətilə "Nizami Gəncəvi və davamlı inkişaf" mövzusunda keçirilən konfransda dövlət rəsmiləri, millət vəkilləri, dünyanın 34 ölkəsindən 695 tədqiqatçı, BMT, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi nüfuzlu maliyyə təşkilatlarının mütəxəssisləri, ictimaiyyət və özəl sektorun nümayəndələri, alimlər iştirak etmişlər.

Konfransı açan UNEC-in rektoru, professor Ədalət Muradov builki konfransın coğrafiyasının daha da genişləndiyini, elmi məqalələrin sayının və nüfuzunun daha da artdığını qeyd edərək onu əvvəlkilərdən fərqləndirən məqamlara diqqət çəkmişdir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağın işğaldan azad edildiyini və konfransın ərazi bütövlüyünü təmin etmiş Azərbaycanda keçirildiyini xüsusi vurğulamış, qazanılan möhtəşəm zəfərin regionun dayanıqlı inkişafı üçün yeni perspektivlər açdığını diqqətə çatdırmışdır.

Ədalət Muradov konfransda iki təkliflə çıxış etmişdir. O, Ağdamda yaradılacaq Qarabağ Universitetinin IV sənaye inqilabı tələblərini nəzərə alaraq Azərbaycanın rəqəmsal transformasiyasını təmin edəcək, insan kapitalı formalaşdıracaq universitet olmasını, magistr və doktorantların növbəti IV beynəlxalq konfransının Ağdamda "Smart universitet", rəqəmsal təhsil mövzularında keçirilməsini təklif etmişdir.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanda 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi və dahi şairin 880 illik yubileyi münasibətilə Gəncədə silsilə tədbirlərin keçirildiyini söyləmişdir. O, bu konfransın Azərbaycan təhsilinə böyük töhfələr verməklə yanaşı, Nizami yurdunun dünyada tanıdılması baxımından böyük rol oynayacağını diqqətə çatdırmış, dinlənilən məruzələrin Gəncədə kiçik və orta biznesin inkişafına, postmüharibə dövründə əhalinin məşğulluğunun artırılmasına və yeni iş yerlərinin açılmasına təkan olacağını vurğulamışdır.

Tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov isə innovativ iqtisadiyyatın təhsil sistemi ilə bağlılığına diqqət çəkərək UNEC-də keçirilən elmi konfransların bu istiqamətdə təqdirəlayiq olduğunu demişdir. Dövrün qlobal çağırışlarından, sosial-iqtisadi inkişaf və inkişafın dayanıqlığını təmin edən amillərdən söz açan nazir IV sənaye inqilabının ölkə iqtisadiyyatı qarşısında yeni yanaşmalar ortaya qoyduğunu, Azərbaycanın hərb meydanında qazandığı qələbənin təməlində güclü iqtisadiyyatın dayandığını bildirmişdir. Mikayıl Cabbarov Nizami Gəncəvi yaradıcılığının dayanıqlı inkişafın təmin edilməsi üçün aparılan tədqiqatlar sahəsində tükənməz xəzinə olduğunu da qeyd etmişdir.

Təhsil naziri Emin Əmrullayev konfransda elmi tədqiqatların aparılmasının əhəmiyyətindən danışaraq demişdir: "Tədqiqat işlərində vaxtı keçmiş alətlərlə müasir dövrün çağırışlarına cavab vermək istəyi müşahidə olunur. Hesab edirəm ki, bu sahədə dəyişikliyin həyata keçirilməsi, ali təhsilin yeni modelinin qurulması və bunun elmi tədqiqatlara sirayət etməsi önəmlidir". Nazir son illər ərzində azərbaycanlı alimlərin yazdığı məqalələrin sayında dəyişiklik nəzərə çarpdığını da qeyd etmişdir: "Bu sayı daha da artırmaq lazımdır. Kimlərin həmin məqalələrdən sitat gətirməsi məsələsi də önəmlidir. Gündə bir neçə saatlıq tədqiqat aparmaqla dünya alimləri ilə rəqabət aparan alim nəsli yetişdirə bilmərik. Odur ki, çalışqan olmaq lazımdır".

PAŞA Holdinq Şirkətlər Qrupunun baş icraçı direktoru Cəlal Qasımov çıxış edərək holdinq tərəfindən təhsil sahəsində həyata keçirilən layihələrdən söz açmışdır. Ali təhsil müəssisələri ilə əməkdaşlıq çərçivəsində reallaşdırılan tədbirləri, təcrübə proqramlarını, əmək fəaliyyətinə cəlb olunmalarını xüsusi vurğulamış, holdinqin bundan sonra da təhsil layihələrini dəstəkləməyə davam edəcəyini demişdir.

Çıxışlardan sonra Nizami Gəncəvi irsi ilə bağlı tədqiqatlar aparan ABŞ-ın Prinston Universitetinin professoru Maykl Barrinin "Nizami Gəncəvi irsi" və Corc Vaşinqton Universitetinin dekanı, professor Maykl Feyerin "Təhsil və iqtisadiyyat" mövzusunda videoməruzələri dinlənilmişdir. Sonda konfransın təşkilatçılarına göstərdikləri dəstəyə görə UNEC tərəfindən təşəkkür plaketləri təqdim olunmuşdur. Eyni zamanda qərara alınmışdır ki, konfransın məruzələr kitabının Harvard, Oxford, Yale, Stanford, Princeton, Columbia, Toronto, Çikaqo, Duke və digər aparıcı universitetlərin, eləcə də Royal Danish Library, British Library, Biblioteque Nationale de France kimi nüfuzlu universitet və dövlət kitabxanalarının kataloqlarında yerləşdirilsin.

Onlayn qaydada keçirilən konfrans iyunun 7-də başa çatmışdır. Konfransdan sonra Azərbaycan Dövlət İqtisad Univesitetinin (UNEC) rektoru, professor Ədalət Muradov keçirilən beynəlxalq konfransın məqsəd və vəzifələri ilə bağlı "Azərbaycan" qəzetinin əməkdaşına müsahibə vermişdir. Rektor demişdir ki, konfransda ABŞ, Rusiya, Çin, Cənubi Koreya, Kanada, Böyük Britaniya, Almaniya, İtaliya, Fransa, Avstraliya, Norveç, Niderland, Belçika, Polşa, Macarıstan, Türkiyə, İndoneziya, Yaponiya, Misir, Cənubi Afrika və ümumilikdə, 34 ölkədən alim-tədqiqatçılar iştirak etmişlər. Bu isə konfransın beynəlxalq nüfuzunun daha da artdığının göstəricisidir. Ə.Muradov daha sonra bildirmişdir ki, III Beynəlxalq Elmi Konfransı əvvəlkilərdən fərqləndirən ən vacib məqamlardan biri Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi dövrünə düşür: "Xalqımızın Vətən müharibəsində qazandığı möhtəşəm qələbə regionumuzda tamamilə yeni reallıqları yaratmaqla yanaşı, Azərbaycanın və bütövlükdə regionumuzun dayanıqlı iqtisadi inkişafı üçün yeni perspektivlər açır. İşğaldan azad olunmuş ərazilərimizdə "ağıllı" şəhər, "ağıllı" kənd layihələrinin işlənməsi və reallaşdırılması, yaşıl enerji və müasir enerjiyə qənaət texnologiyalarından istifadə, təbii resursların istehsal proseslərinə cəlb olunmasında yüksək ekoloji standartların tətbiqi, yeni nəqliyyat dəhlizlərinin açılması kimi strateji məsələlərin elmi cəhətləri bu gün Azərbaycan iqtisadçılarının gündəmində olan əsas mövzulardandır. Bütün bu məsələlər müzakirələrdə özünə geniş yer almışdır".

Rektor qeyd etmişdir ki, bu beynəlxalq konfransın "Nizami Gəncəvi və dayanıqlı inkişaf" mövzusuna həsr edilməsi təsadüfi deyil: "Cəmiyyətdə baş verən hadisələrə ümumbəşəri mövqedən yanaşma Nizami yaradıcılığında xüsusi yer tutur. Nizami Gəncəvi əsərlərinin məhz bu cəhəti onun əbədi müasirliyini, böyük elmi və mənəvi əhəmiyyətini daha yaxşı əks etdirir. Şairin cəmiyyətdə tutduğu mövqeyinə, həyata baxışlarına görə bir-birindən kəskin fərqlənən insanların mənəvi dünyasına baxışları xalqımızın multikultural dəyərlərinin nə qədər qədim və dərin köklərə malik olmasının parlaq nümunəsidir. Odur ki, Nizami irsinin iqtisadçılar tərəfindən tədqiqi iqtisad elminin ən müasir cərəyanlarından olan davranış iqtisadiyyatı və eləcə də dövlətin iqtisadi proseslərdə iştirakı istiqamətlərində yeni konseptual ideyaların ortaya çıxarılması üçün əhəmiyyətli nəticələr verə bilər. Elə bu məqsədlə növbəti 3-cü konfrans dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəviyə həsr olunmuşdur"

Sonda qeyd edək ki, 4 gün davam edən konfransda 16 seminar və 66 bölmədə müzakirələr aparılmışdır. Təxminən 600-ə yaxın məruzə dinlənilmiş, xarici ölkələrdən olan tədqiqatçılar özlərinin apardıqları araşdırmalarla bağlı məlumatlar vermişlər. Bundan başqa, Prezident İlham Əliyevin Qarabağın azad olunmasından sonra verdiyi tövsiyələri əsas tutaraq ən aktual mövzuların müzakirəsi aparılmışdır. Seminarlarda "ağıllı" şəhər, "ağıllı" kənd konsepsiyası ilə bağlı sənaye inqilabı və s. bu kimi məsələlər müzakirə olunmuşdur. Prezidentin Ağdamın Baş Planının təsdiqi zamanı bəyan etdiyi Ağdamda yaradılacaq Qarabağ Universiteti də konfransda müzakirə mövzusu olmuş, bununla bağlı müxtəlik təkliflər irəli sürülmüşdür.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Nizami irsinə ehtiramın təcəssümü

***Ölçülüb-biçilərsə incə fikir, incə söz,***
***Nə qədər gözəlləşər, olar ürəyincə söz.***
***Kim ki sözə söz qoşub tapar haqqın səsini,***
***Sözlə iki aləmin açar xəzinəsini.***
***Bu xəzinəni yalnız açar tapanlar açar,***
***Yalnız söz ərlərinin dilləridir bu açar...***

**Söz xəzinəsinin xiridarı, sözün qiymətini bilən, adını dünya ədəbiyyatının korifeyləri sırasına həkk etdirən, poeziya aləminin dühası Nizami Gəncəvinin ölməz ədəbi irsi insana məhəbbət, humanizm, yüksək əxlaq, tərbiyə və bilik aşılamaqla bərabər, canlı tariximizdir, keçmişimizin ən qaranlıq guşələrinə işıq salan sönməz məşəldir.**



Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Böyük sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlayır. Qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci ili ölkəmizdə "Nizami Gəncəvi ili" elan edib.

Bu qərarın qəbul olunması öz yaradıcılığı ilə bütün dünyada şöhrət qazanan, poetik aləmin dühası hesab edilən dahi Nizami Gəncəviyə və ümumən, klassik ədəbi irsimizə dövlət səviyyəsində verilən yüksək dəyərin bariz nümunəsidir.

Nizaminin yaradıcılığı hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olub. Ölkəmizdə Nizami əsərlərinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülüb, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilib. Nizami Gəncəvinin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılıb. Mütəfəkkirin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılıb. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir.

Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilib. Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaradıb. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan Ümummilli Lider Heydər Əliyev Nizami irsinə xüsusi diqqət yetirib. Ulu Öndərin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açdı. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilmiş 840 illik yubileyi mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrildi.

Heydər Əliyev bildirirdi ki, insanların mənəviyyatına, tərbiyəsinə, əxlaqına, fikirlərinin formalaşmasına şeir, ədəbiyyat, mədəniyyət nümunələri qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur. Tariximizə sahib çıxmağı, saxtalaşdırılmasına yol verməməyi qarşıya mühüm vəzifə kimi qoyan Ümummilli Liderin milli-mənəvi, dini dəyərlərimizin, dilimizin qorunması, tariximizin öyrənilməsi və gələcək nəsillərə çatdırılması yönündə atdığı davamlı addımların miqyası geniş olub. Ulu Öndər gənclərə də çağırış edirdi ki, tariximizi, ədəbiyyatımızı yaxşı öyrənin, dilimizi, milli-mənəvi dəyərlərimizi qoruyun.

Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyev də milli-mənəvi dəyərlərimizə xüsusi diqqət göstərir. "Müstəqillikdən əvvəl bizi millət kimi qoruyub saxlayan milli dəyərlərimiz, milli ənənələrimiz, ana dilimiz, ədəbiyyatımız, musiqimiz olub" söyləyən dövlət başçısının sərəncamları ilə 2019-cu ilin "Nəsimi ili", 2021-ci ilin "Nizami Gəncəvi ili", işğaldan azad olunmuş Şuşanın isə Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi Heydər Əliyev siyasətinin uğurlu davamının göstəricisi, həm də təkcə ədəbiyyata deyil, ümumilikdə mədəniyyətə, Azərbaycana və sivilizasiyaya verilən dəyərdir.

Dövlət başçısının dahi şair, humanist mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyinin ölkəmizdə və dünyada ilboyu təntənə ilə qeyd edilməsi, 2021-ci ilin "Nizami Gəncəvi ili" elan olunması ilə bağlı imzaladığı sərəncam Nizami Gəncəvi yaradıcılığının Azərbaycan xalqının mənəviyyat xəzinəsində rolu və yerini təbliğ etmək, gənc nəslə çatdırmaq məqsədi daşıyır.

Bu qərar ölkəmizdə klassik ədəbi irsimizə, milli ədəbiyyatımızın və mədəniyyətimizin görkəmli simalarının tanıdılmasına müstəqil Azərbaycan dövlətinin göstərdiyi xüsusi diqqətin və böyük qayğının əməli ifadəsidir. Eyni zamanda Prezident İlham Əliyevin Azərbaycan tarixinə, mədəniyyətinə və ədəbiyyatına, ədəbi-tarixi şəxsiyyətlərimizə yenidən qayıdış istiqamətində apardığı ardıcıl siyasətin növbəti təzahürüdür.

Müvafiq sərəncam Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Nizami Gəncəvinin zəngin irsinin tədqiqi, tərcümə və nəşr edilməsi haqqında 1979-cu ildə qəbul edilmiş qərar əsasında həyata keçirilmiş tədbirlərə yenidən qayıtmağa, vaxtilə başlanmış mühüm işləri daha əhatəli şəkildə və yaradıcılıqla davamına xidmət edir.

Azərbaycanda və dünyada kifayət qədər tanınmış və böyük şöhrət qazanmış Nizami Gəncəvinin zəngin bədii irsini azərbaycançılıq və müstəqil dövlətçilik işığında yenidən tədqiq və təbliğ etməklə bu görkəmli sənətkarı daha dərindən kəşf etməyə və bütün parlaqlığı ilə yenidən tanıtmağa ehtiyac var. Qeyd edilən sərəncam da bu nəcib və önəmli vəzifənin gerçəkləşdirilməsini hədəfə alıb.

"Nizami Gəncəvi ili" mütəfəkkirin həyat və yaradıcılığını bütün istiqamətlər üzrə yeni təfəkkür əsasında tədqiq və təhlil etməyə geniş meydan açır, yüksək imkan yaradır. Dahi şairin əsərlərinin dünya dillərinə tərcüməsi, haqqında xarici dillərdə tanıtım kitablarının nəşri kimi qarşıya mühüm vəzifələr qoyur. Bütün bunlar Nizaminin sülhün, əmin-amanlığın, ədalətin, insanpərvərliyin bərqərar olması ilə bağlı bəşəri çağırışlarının daha dərindən öyrənilib, dünyaya çatdırılmasına kömək edəcək. Beləliklə də, "Nizami Gəncəvi ili" nizamişünaslıq elmini daha da irəli aparmağa, müasir dövrün tələbləri səviyyəsinə yüksəltməyə təkan verəcək.

Ancaq bu mühüm qərar özündə yalnız dahi şairin anadan olmasının 880 illik yubileyini ehtiva etmir. Bu həm də daşıyıcısı olduğumuz dəyərlərin millət olaraq o dəyərlərə sadiqliyimizi təsdiq edən sənəddir. Bu gün milli ideologiyamızın əsas tərkib hissələrindən biri azərbaycançılıqdır. Azərbaycançılıq həyat tərzində, əxlaqda, mənəviyyatda, dildə, dində, ədəbiyyatda, mədəniyyətin bütün sahələrində əsas istiqamətlərdəndir. Millətin mədəni-mənəvi mövcudluğunun bütün təzahürləri bu gün vahid bir ideya ətrafında sıx surətdə birləşib. Milli-mənəvi dəyərlərə göstərilən qayğı da dövlət siyasətinin başlıca prinsiplərindən biridir. Azərbaycan Prezidentinin imzaladığı adıçəkilən sərəncam da milli-mənəvi dəyərlərimizin dövlət səviyyəsində himayə edilməsinin növbəti parlaq təzahürüdür.

Nizami Gəncəvinin növbəti yubileyinin ilboyu ölkəmizdə və dünyada silsilə tədbirlərlə qeyd edilməsini nəzərdə tutan sərəncam yeni nəsillərdə milli iftixar, azərbaycançılıq, vətənpərvərlik duyğuları aşılamaq, milli-mənəvi özünüdərk prinsiplərini daha geniş təbliğ etmək üçün də qarşımızda yeni perspektivlər açır.

2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi yalnız Nizami Gəncəvinin irsinin araşdırılması ilə məşğul olan tədqiqatçılar üçün yox, bütün insanlar üçün bir çağırışdır. Şərq ədəbiyyatının fəlsəfi fikrinin ən böyük yaradıcılarından biri, xalqımızın ruhunu, bəşəri dəyərləri öz yaradıcılığında ifadə edən və dünyada yayan dahi mütəfəkkiri hər bir azərbaycanlının könlünə köçürmək çağırışı...

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***




# Bakı möhtəşəm idman bayramının şahidi oldu



## Azərbaycan Qran-prisinin təşkili hər cür təqdirəlayiq idi





*Əvvəli 1-ci səh.*

Şübhəsiz, Bakıda ən çox sevinən Qran-prinin qalibi Serxio Peres idi. Pilotun sevinci yerəgöyə sığmırdı: "Bakını sevirik! Burada "Red Bull" ilə birlikdə ilk qələbəmizi qazanmaq çox xoşdur. Bugünkü gündən həzz ala bilərik. Mükəmməl tempimiz və çox səmərəli avtomobilimiz var idi. Komanda hər həftə maksimum səy göstərir. Arxada yalnız altı yarış qalıb, hələ daha irəli gedə bilərəm".

Peresin komanda yoldaşı Maks Ferstappen podiuma çıxa bilmədiyindən təəssüf hissi keçirsə də, əldə olunmuş qələbənin əhəmiyyətini vurğulamışdır: "Serxio komandanın ondan istədiyi hər şeyi etdi. O, əla start götürdü və pit-stopdan sonra ikimiz də Luisi keçdik. Qələbə qazanmaq mənə müyəssər olmasa da, onun bunu bacardığına görə sevinirəm. Serxio əla oğlan, gözəl ortaqdır. "Red Bull"da ilk qələbəsindən sonra podiumda təbbəssümünü görmək xoş idi".

"Formula-1"in tarixində ilk dəfə Bakıda podiuma çıxan "Aston Martin" komandası da nəticədən məmnundur. Komandanın rəhbəri Otmar Safnauerin fikrincə, Azərbaycan paytaxtında ikinci yeri tutmaq "Aston Martin" kollektivinin parlaq uğurudur. Komandanın pilotu Sebastyan Fettel isə belə bir uğura imza atacağını gözləmirdi: "Sevincimdən göyün yeddinci qatındayam - ikinci yer hamımız üçün çox şey deməkdir. Podiuma qalxacağımızı gözləmirdik, lakin komanda bütün uik-end boyunca əla irəliləyirdi və maşın yürüşdə sürətli idi. Maşında rahat idim, trasdakı hadisələr və strategiya ilə birlikdə həqiqətən xüsusi nəticə əldə edə bildik".

Azərbaycan Qaran-prisini üçüncü yerdə tamamlamış Pyer Qasli də sevincini gizlədə bilmirdi: "Heyrətamiz uik-end idi: üçüncü məşq protokoluna rəhbərlik etdim, sonra təsnifat mərhələsində dördüncü oldum, axırda isə podiuma çıxdım! Əla nəticədir!" Qasli əldə etdiyi uğurla kifayətlənmək fikrində deyil, çünki qarşıda "Formula-1"in Fransa mərhələsi var: "Aydınlaşdırmaq lazımdır ki, niyə bu həftəsonu belə yaxşı çıxış etdik. Bu informasiyadan növbəti yarışda istifadə etməliyik. Məni ev Qran-prisi gözləyir. Yenidən uğur qazanmaq istəyirəm".

"AlphaTauri" komandasının rəhbəri Frans Tost da Qaslinin təəssüratına şərikdir. Onun fikrincə, Bakıda keçirilmiş Qran-pri startdan finişədək möhtəşəm yarış idi: "Bu həftəsonu komanda çox xal qazandı və Konstruktorlar kubokunda beşinci yerə yüksəldi. Uşaqlar əla işlədilər: doğru strategiya seçdilər və səliqə-sahmanla pit-stop etdilər. Onlar bu nəticəyə layiqdirlər. Bütün komandanı təbrik edirəm və ümidvaram ki, növbəti yarışlarda belə yaxşı çıxışı davam edəcəyik".

Bütün idman yarışlarında olduğu kimi, Azərbaycan Qran-prisinin nəticələri hamını razı sala bilməzdi: sevinənlərlə yanaşı, məyus olanlar da vardı. Bakıda zəif çıxış edənlərdən biri "Mercedes" komandası idi. Almaniya komandası Azərbaycan Qran-prisində xal qazana bilməməklə üç il əvvəl - 2018-ci ildə Avstriya Qran-prisində üzləşdiyi uğursuzluğu təkrarlamışdır. "Mersedes"in pilotları Valtteri Bottas yarışı 12-ci, Luis Hamilton isə 16-cı yerdə tamamlamışlar.

Bununla belə, Azərbaycan Qran-prisinin fəxri kürsüsünə çıxa bilməyənlərin heç də hamısı nəticədən narazı deyil. Məsələn, yarışı 5-ci pillədə başa vurmuş "McLaren" komandasının pilotu Lando Norris hesab edir ki, belə bir nəticə pis deyil: "Yarış asan olmadı, rəqibləri ötüb keçmək gözlədiyimdən daha çətin idi, amma yenə də beşinci yeri tutub çox xal toplaya bildim. Beşinci yer bizim maksimumuzdu".

Yeri gəlmişkən, Bakıda böyük idman tədbirinin bayrama çevrilməsində əməyi olanları da qeyd etmək lazımdır. Azərbaycan Qran-prisinin baş tutması indiki mürəkkəb şəraitdə təşkilatçıların böyük uğuru kimi qiymətləndirilməlidir. Yeni tip koronavirus bəşər həyatının bütün sahələrinə, o cümlədən idmana mənfi təsir etdiyindən beynəlxlaq miqyaslı turnirləri təşkil etmək elə də asan olmur, əvvəlkindən də böyük məsuliyyət tələb edilir. Bakıda keçirilmiş möhtəşəm idman tədbiri bütün gözləntiləri aşıb keçdi. Hazırlıq işlərində ən cüzi problem belə ortaya çıxmadı. Doğrudur, məlum səbəbdən azarkeşlər Azərbaycan Qran-prisini yerindəcə izləyə bilmədilər, Bakı əvvəlki dörd Qran-pridə olduğu kimi əcnəbi turist axını görmədi. Başqa sözlə, şəhərdə qonaqların təhlükəsizliyini təmin etmək kimi mühüm məsələ gündəlikdə deyildi.

Lakin bütün bunlar yarış təşkilatçılarının məsuliyyətini qətiyyən azaltmırdı. Qarşıya qoyulmuş vəzifə - idman tədbirinin tələb olunan səviyyədə təşkili və onun iştirakçılarının ədalətli mübarizə aparması üçün lazımi şəraitin yaradılması uğurla icra olundu. Bakı Şəhər Halqası əməliyyat şirkəti əlaqədar dövlət orqanları ilə sıx əməkdaşlıq şəraitində idman tədbirini ən yüksək səviyyədə təşkil etdi, "Formula-1" komandalarının və yarışı televiziya ilə izləyən yüz milyonlarla motoidman azarkeşinin rəğbətini qazandı. Mübaliğəyə varmadan demək olar ki, Azərbaycanda Qran-prinin təşkili hər cür təqdirəlayiq idi.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***



İyunun 6-da Bakıda "Formula-1" üzrə dünya çempionatının altıncı mərhələsi - Azərbaycan Qran-prisinin əsas yarışı keçirilib.

AZƏRTAC xəbər verir ki, pilotların təqdimatından sonra iyunun 6-da dünyasını dəyişmiş ərəb əsilli fransalı iş adamı, "Formula-1" üzrə dünya çempionatında komandası olan idman avtomobilləri istehsalçısı "McLaren" şirkətinin sərmayədarı Mansour Ojjehin xatirəsi yad edilib.

## "Formula-1" Azərbaycan Qran-prisi başa çatdı

Sonra mötəbər yarışın xüsusi konsepsiya əsasında hazırlanan açılış mərasimi olub. Açılış mərasiminin əsas konsepsiyası Azərbaycan Qran-prisinin builki çempionatın beşinci yarışı olmasına, eləcə də multikulturalizm və tolerantlıq ideyalarına əsaslanıb.

"Formula-1" Azərbaycan Qran-prisinin açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himnini Vətən müharibəsi qazisi Atəş Qarayev və "Eurovision-2012" mahnı müsabiqəsində ölkəmizi təmsil edən Səbinə Babayeva səsləndiriblər. Himn səsləndirilən zaman trek üzərində dayanan müxtəlif millətlərin nümayəndələri əllərində Azərbaycan Respublikasının Dövlət Bayrağını tutublar. Onlar Bakıda keçirilən beşinci "Formula-1" yarışını simvolizə edən və barış işarəsini əks etdirən "V" formasında dayanıblar.

Azərbaycan Respublikasının Dövlət Himninin bu mərasim üçün xüsusi versiyası tanınmış bəstəkar və musiqi prodüseri Azad Vəliyev tərəfindən hazırlanıb. Dövlət Himninin bu tərtibatı Konstitusiya ilə dəqiq müəyyənləşdirilmiş formada təqdim olunub.

Daha sonra "Formula-1" Azərbaycan Qran-prisinin əsas yarışına start verilib. Qran-pridə hər birində iki pilot olan on komanda mübarizə aparıb. Pilotlar uzunluğu 6 kilometr, yürüş marşrutunun ümumi məsafəsi isə 306 kilometr olan Bakı Şəhər Halqasında iki saat ərzində 51 dövrə vurublar.

Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.

Maraqlı hadisələrin baş verdiyi və gərgin idman mübarizəsinin yaşandığı Azərbaycan Qran-prisi "Red Bull Racing Honda" komandasının meksikalı pilotu Serxio Peresin qələbəsi ilə başa çatıb. O, Bakı Şəhər Halqasında 51 dövrəni hamıdan tez (1:44.703) başa vuraraq podiumda birinci pillənin sahibi olub. İkinci yeri "Aston Martin" komandasının almaniyalı sürücüsü Sebastian Fettel (1:45.138) qərarlaşıb. "AlphaTauri" komandasının fransalı sürücüsü Pyer Qasli (1:45.588) isə yarışı üçüncü sırada tamamlayıb.

Qaliblərin mükafatlandırılması mərasimində podiumda yer alan pilotlara və Qran-prinin qalibi olan "Red Bull Racing Honda" komandasının nümayəndəsinə kuboklar təqdim edilib.

Qalib idmançının və komandanın şərəfinə Meksikanın və Avstriyanın dövlət himnləri səsləndirilib.

Beləliklə, bu qələbə sayəsində Serxio Peres "Formula-1" üzrə dünya çempionatında pilotların mübarizəsində iki pillə irəliləyərək 69 xalla üçüncü sırada qərarlaşıb.

Ümumilikdə, altı Qran-pridən sonra çempionata 105 xalla "Red Bull Racing Honda" komandasının niderlandlı pilotu Maks Ferstappen liderlik edir. Bəhreyn (26-28 mart), Portuqaliya (30 mart-2 may) və İspaniya (7-9 may) Qran-priləri-nin qalibi olan M.Ferstappen aprelin 16-18-də keçirilmiş İtaliya və mayın 20-23-də təşkil olunan Monako Qran-prilərində ikinci yeri tutub.

"Mercedes" komandasının britaniyalı sürücüsü Luis Hamilton 101 xalla ikincidir. Onun həmyerlisi, "McLaren" komandasının pilotu Lando Norris (66 xal) dördüncü, "Ferrari"nin Monakodan olan pilotu Şarl Lekler (52 xal) isə beşinci sırada yer alıblar. Azərbaycan Qran-prisində podiumda üçüncü pillədə yer alan Pyer Qasli 31 xalla səkkizinci sırada qərarlaşıb. Bakı yarışında üçüncü olan Sebastian Fettel isə 28 xalla 9-cu sıradadır.

"Red Bull Racing Honda" komandası Bakı Qran-prisində qələbə sayəsində ikinci sıradakı "Mercedes" ilə xal fərqini 26-ya çatdırıb. Hazırda bu komandanın 174 xalı var. "Ferrari" isə 94 xalla üçüncü sırada qərarlaşıb. "McLaren" komandası 92 xalla dördüncü, "AlphaTauri Honda" isə 39 xalla beşincidir.

Bu Qran-pridə "Mercedes" komandasının pilotları xal qazana bilməyiblər. Belə ki, Valtteri Bottas yarışı 12-ci, Luis Hamilton isə 16-cı pillədə başa vurublar. Beləliklə, 2018-ci ildə Avstriya Qran-prisindən sonra ilk dəfə bu komanda yarışda xal qazanmayıb.

Bakıda "Formula-1" Azərbaycan Qran-prisinə iyunun 4-də start verilib. Yarışın birinci günündə pilotlar Bakı trekində iki sərbəst yürüşdə mübarizə aparıblar. Ötən gün isə "Formula-1" pilotları üçüncü sərbəst yürüş və sıralanma turunda mübarizə aparıblar. Sıralanma yürüşündən sonra "Formula-1" Azərbaycan Qran-prisində pilotların düzülüşü müəyyənləşib. "Formula-1" Azərbaycan Qran-prisi çərçivəsində Bakıda "Formula-2" yarışları da keçirilib.

Xatırladaq ki, "Formula-1" yarışı Azərbaycanda 2016-cı ildən keçirilib. Birinci yarışda - "Formula-1" Avropa Qran-prisində "Mercedes" komandasının almaniyalı pilotu Niko Rosberq qalib gəlib. 2017-ci ildə təşkil olunan "Formula-1" Azərbaycan Qran-prisi "Red Bull Racing Honda" komandasının avstraliyalı pilotu Daniel Rikkiardonun qələbəsi ilə başa çatıb. Ondan bir il sonra isə "Mercedes" komandasının britaniyalı sürücüsü Luis Hamilton Bakı Şəhər Halqasını fəth edib. 2019-cu ildə "Formula-1" idmanı tarixində sayca 1001-ci Qran-pri olan Bakı yarışında "Mercedes" komandasının pilotu Valtteri Bottas qalib adını qazanıb. Ötən il koronavirus pandemiyası ilə əlaqədar "Formula-1" üzrə dünya çempionatının bir neçə mərhələsi, o cümlədən Azərbaycan Qran-prisi ləğv edilib.

"Formula-1" üzrə dünya çempionatının növbəti - yeddinci Qran-prisi iyunun 18-20-də Fransada keçiriləcək. Çempionatın sonuncu - 23-cü Qran-prisi isə dekabrın 10-12-də Əbu-Dabidə təşkil olunacaq.



# Bütün inancların qovuşduğu müqəddəs məkan

Əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil edən Azərbaycan tarixboyu digər din və mədəniyyətlərə dözümlü münasibətilə seçilib. Respublikamızda hər zaman sinaqoq və kilsələr məscidlərlə yanaşı fəaliyyət göstərib, insanlar dini ayinlərini sərbəst yerinə yetiriblər və nümayiş etdirilən bu yüksək tolerantlıq ənənəsi bu gün də davam edir.

Statistik rəqəmlərə əsasən, hazırda ölkə ərazisində 2250 məscid, 16 kilsə və 7 sinaqoq fəaliyyət göstərir. Dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesinin başladığı 2009-cu ildən bu günədək 970 dini qurum dövlət qeydiyyatına alınıb. Konfessional baxımdan onlardan 933-ü islam, 37-si isə qeyri-islam (xristian - 26, yəhudi - 8, krişna - 1, bəhai - 2) təmayüllüdür.

## Dinlərin harmoniyası

Tarixboyu Odlar yurdu dinlərin harmoniyasına evsahibliyi etmiş, bütün dinlərə məxsus qədim ibadət yerlərinin təməlləri də məhz bu müqəddəs yurdda qoyulmuşdur. Tarixdə ilk din olan Zərdüştlüyün qədim atəşpərəstlik məbədi Bakıda, Qafqazın ən qədim kilsələrindən biri - Qafqaz Albaniyası kilsəsi Şəki yaxınlığında və müsəlman aləminin ən qədim ibadətgahlarından biri olan, 743-cü ildə tikilmiş məscid Şamaxıda yerləşir. Bunlar Azərbaycanın bütün dinlərin, inancların qovuşduğu bir məkan olmasının əyani sübutudur.

Azərbaycan xalqı tolerantlığı ilə hər zaman seçilmiş, ölkəmizdə müxtəlif dini konfessiyalar tərəfindən ibadət evlərinin tikintisinə və bərpasına maddi və mənəvi dəstək vermişdir. XIX əsrin sonlarına yaxın Bakıda "Qızıllı kilsə" kimi tanınan "Aleksandr Nevski" kilsəsinin inşası üçün toplanılmış ianənin böyük hissəsinin müsəlmanlar tərəfindən verilməsi dünyada bənzəri olmayan tolerantlıq nümunəsidir. Kilsənin inşaat büdcəsi tezliklə tükəndiyi üçün Bakı sakinləri tikintinin davam etdirilməsi üçün 200 min manat ianə yığmışdı ki, bu məbləğin də 75 faizi məhz müsəlmanlar tərəfindən verilmişdi. O cümlədən məşhur Azərbaycan milyonçusu və xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyev də əlavə olaraq bu kilsənin tikintisinə 10 min manat ianə vermişdi.

Onu da qeyd edək ki, Bakıda Jen Mironosets pravoslav kafedral kilsəsi 1909-cu ildə Hacı Zeynalabdin Tağıyevin şəxsi maddi yardımı və ianələr hesabına inşa edilmişdir. Təbii ki, belə faktlar çoxdur və sadalamaqla bitməz, amma elə bu nümunələr də tam əminliklə deməyə bəs edər ki, bu cür bənzərsiz tolerantlıq nümunələrinə dünyanın başqa heç bir yerində rast gəlmək mümkün deyil. Həm də bunu təkcə soydaşlarımız yox, illərdir Azərbaycanda yaşayan xalqların, etnik qrupların, dini icmaların nümayəndələri, eyni zamanda dünyanın ali dini rəhbərləri də dönə-dönə vurğulayırlar. "Azərbaycanda dinlərarası gözəl görüşləri xatırlatmaq istərdim. Burada dinlərin yarada biləcəyi harmoniyanı hiss etdim. Yalnız bir yol var - hər kəsə görə dua etmək və hər kəslə ünsiyyət qurmaq, mili nizəyə çevirmək, nifrət edildiyin zaman sevmək, təhqir edildiyin zaman bağışlamaq, dünya ilə harmoniyada yaşamaq..." Bu fikirləri Roma papası Fransisk 2018-ci ildə Vatikanda Qafqaz dağ yəhudilərindən ibarət nümayəndə heyətini qəbul etdiyi zaman səsləndirmişdi..."

Bəli, bəşəriyyətin ali dini rəhbərlərindən biri məhz Azərbaycanı dünyaya bir örnək, nümunə kimi göstərmişdir...

## İsraili tarixi, Azərbaycanı isə doğma vətənləri sayırlar

Ölkəmizdə qədim ənənələrə malik yəhudi icmasının mədəni irsi də Azərbaycan dövlətinin qayğısı ilə əhatə olunur. Təkcə onu vurğulamaq yetər ki, dünyada yaşayan 16 milyona yaxın yəhudidən 30 mini Azərbaycandadır. Qubada yerləşən Qırmızı Qəsəbədə dağ yəhudiləri kompakt şəkildə yaşayır, onlar İsraili tarixi, Azərbaycanı isə doğma vətənləri sayırlar.

Bu gün Bakının mühüm küçələrindən biri yəhudi əsilli Milli Qəhrəmanımız Albert Aqarunovun adını daşıyır, xatirəsinə möhtəşəm abidə ucaldılıb.

Ölkəmizdə yaşayan yəhudilər bütün dini ayinlərini sərbəst yerinə yetirir, Azərbaycan xalqının istifadə etdiyi bütün imtiyazlardan onlar da sərbəst yararlanır, əsrlərboyu formalaşan milli-mənəvi dəyərlərini, adət-ənənələrini daha da zənginləşdirərək yaşadırlar. Yeri gəlmişkən, Bakıda köhnə məbədin yerində tikilən yəhudi sinaqoqu Avropada ən böyük sinaqoq sayılır. Yəhudilərin kompakt şəkildə yaşadığı, Qırmızı qəsəbədəki altı günbəzli sinaqoq da bərpa edilib.

Xristianlıq isə Azərbaycan ərazisinə hələ İsa Məsihin həvariləri dövründə Qafqaz Albaniyası vasitəsilə nüfuz edib. Bura, xristianlığın ilk yayıldığı bölgələrdəndir. Hətta, tarixi köklərini Qüdsdən alan Alban Apostol kilsəsinin ənənələri və onun qədim Şərq kilsələri ilə əlaqələrinin üzə çıxarılması istiqamətində araşdırmalar aparılması nəticəsində Albaniyada xristianlığın həvvari - sirofil dövrü ilə bağlı maraqlı mənbələr də üzə çıxarıla bilər.

Azərbaycanda xristianlıq özünün pravoslavlıq, katoliklik və protestantlıq qolları, habelə müxtəlif sektant icmaları ilə təmsil olunub. Bakıda Rus Pravoslav Baş Kafedral kilsəsi olan Jen-Mironosets kilsəsi sovet dövründə anbar kimi istifadə olunub və dağıntılara məruz qalıb. Dövlət müstəqilliyimizin bərpasından sonra bu məbəd təmir edilərək istifadəyə verilib.

Bakıda Xilaskar Yevangelik Lüteran Kilsəsi, Gəncə şəhərindəki Aleksandr Nevski Rus Pravoslav Kilsəsi Azərbaycan dövləti tərəfindən təmir olunub.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bütün dini icmalara bərabər şərait yaradıldığı kimi katolik icmasına da qayğı göstərilmiş və Ümummilli Lider Heydər Əliyevin göstərişi ilə dini məbədə ehtiyac duyan katoliklər üçün o vaxt bolşeviklər tərəfindən uçurulmuş kilsənin yerinə yenisinin inşa edilməsi məqsədilə ərazi ayrılmışdır. Uçurulan "Bakirə Müqəddəs Məryəm" kilsəsinin xatirəsinə həsr edilən kilsənin tikintisi 2007-ci ilin fevralında yekunlaşmış, rəsmi açılışı isə Vatikanın dövlət katibi, kardinal Tarçizio Bertonenin 2008-ci ilin martında Azərbaycana səfəri çərçivəsində baş tutmuşdur. Açılış mərasimində dövlət başçısı İlham Əliyev, Birinci xanım Mehriban xanım Əliyeva da iştirak etmişdir.

## Udilər - alban kilsəsinin dini varisləri

Azərbaycanda yaşayan xalqlar rəngarəng tolerantlıq nümunəsi kimi dünya tarixinə örnəkdirlər. Burada fərqli xalq, etno mədəniyyət, dini konfessiya nümayəndələri birgə yaşayırlar. Bunun bariz nümunələrindən biri də Qəbələ rayonunun Nic qəsəbəsində yaşayan udilərdir. Udi xalqı Azərbaycanın köklü, aborigen azsaylı xalqlarından biridir. Bu etnos qədim Qafqaz Albaniyasının Uti əyalətində, XIX əsrdə isə Nuxa (indiki Şəki rayonu) bölgəsinin bir neçə yaşayış məskənində məskunlaşıb. Hazırda isə Qəbələ rayonunun Nic kəndində və qismən də Oğuz rayonunda yaşayırlar. Udilər həm qədim etnik xalqdır, həm də fərqli dini konfessiyadır. Udilər, alban kilsəsinin dini varisləri, müsəlmanların ətrafında əsrlərdir təhlükəsiz yaşayan qədim xristian xalqıdır.

Reallıqdır ki, bu etnosun Azərbaycanda tarixən var olması və bu günə qədər özünü qoruyub saxlamasının əsas səbəbi bir tərəfdən xalqın tolerantlığıdırsa, digər tərəfdən də Azərbaycanda olan multikultural mühitdir. Udilər yüz faiz öz ana dilini bilir, onlara 5-ci sinfə kimi ana dilində dərs keçilir, ibadətlərini öz dillərində aparırlar. Bütün bayramlarını, o cümlədən sovet sistemi dağılandan sonra hər il 20 iyulda keçirdikləri Udi Mədəniyyət Gününü lazımi səviyyədə qeyd edirlər.

Xüsusilə də Azərbaycan müstəqillik qazandıqdan sonra udilərin həyatında xeyli müsbət dəyişikliklər olub. Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğı sayəsində 2003-cü ildə Qafqazın ən qədim kilsələrindən olan Şəki rayonundakı Kiş məbədi, 2006-cı ildə isə Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən 3 xristian məbədindən biri - Müqəddəs Yelisey adına Çotari kilsəsi bərpa edilib.

Qəbələnin Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsi isə 2019-cu ildə Heydər Əliyev Fondu tərəfindən bərpa olunmağa başlanmış və 2020-ci ilin noyabr ayında 44 günlük müharibə zamanı bərpa işləri başa çatdırılmışdır.

Bu il mayın 15-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Qəbələyə səfər edərək Nicdəki "Müqəddəs Məryəm Ana" alban kilsəsinin ilkin vəziyyəti ilə tanış olublar.

Prezident İlham Əliyev kilsədə söyləyib ki, udi xalqının çox böyük tarixi mirası var: "İndi Qəbələ rayonu ərazisində və eyni zamanda azad edilmiş torpaqlarda siz gedib ibadət edirsiniz - həm Xudavəngdə, həm Ağoğlanda. Orada udi xalqına məxsus olan digər məbədlər də var. Onların böyük hissəsi dağılmış, ya da ki, yarıdağılmış vəziyyətdədir. Ona görə, onları da bərpa edəcəyik. Siz o kilsələrə də gedəcəksiniz".

Prezident vurğulayıb ki, bu günlərdə Şuşada "Xarıbülbül" festivalında müxtəlif xalqların, o cümlədən udi xalqının nümayəndələrinin çıxış etmələri bir daha onu göstərir ki, Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayırlar.

Ölkəmizdə tatlar, talışlar, kürdlər, molokanlar, ingiloylar, saxurlar, avarlar, ləzgilər kimi bir çox etnik qruplar yaşayırlar. Onlar özlərinəməxsus mədəniyyətlərini qoruyub saxlayırlar.

## Erməni yamanlığına Azərbaycan yaxşılığı...

Statistik faktlara əsasən, işğaldan azad olunmuş ərazilərimizdə tarixi-dini abidələrdən 67-si məscid, 139-u məbəd, 192-si ziyarətgah olmuşdur. Həmin 67 məsciddən (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 65-i mənfur ermənilər tərəfindən tamamilə, 2-si isə qismən dağıdılaraq yararsız hala salınıb.

Amma humanist xalqımız ona düşmənçilik edənlərə qarşı da həmişə tolerantlıq nümayiş etdirib. İşğal olunan torpaqlarımızdakı dini ocaqların, məscidlərin, məzarlıqların dağıdılmasına baxmayaraq, bu gün də Bakının mərkəzində ermənilərin dini məbədi, məzarlıqları qorunub saxlanılır, onlara qarşı heç bir hörmətsizlik edilmir...

Dövlət tərəfindən bərpa edilərək mühafizə olunan Bakının mərkəzindəki erməni kilsəsində ədəbiyyat fondu saxlanılır.

Tolerantlıq Azərbaycan xalqının tarixindən, keçmişindən süzülərək bu günə gələn milli-mənəvi dəyərləri arasında başlıca yeri tutur. Zəngin milli-mənəvi dəyərlərimiz, azərbaycançılıq ideyası ölkəmizdə tolerantlığın ən möhtəşəm modelini formalaşdıraraq dünyaya nümunə, örnək olur.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Sevilməyən rollarla məşhurlaşan aktyor

Məlik Dadaşovun səhnə ömrü verdiyi qəhrəmanlar dövrü, taleyi və xarakterləri ilə fərqlidirlər. Onları bir-birinə bənzədən yalnız bir cəhət var. Aktyor ona həvalə edilmiş bütün rolları eyni şövqlə, eyni peşəkarlıqla ifa edib...



## Sənətə doğru gedən yol

Azərbaycan aktyorluq məktəbinin formalaşmasında xüsusi xidmətləri olan Məlik Dadaşov 1924-cü il iyunun 7-də Bakıda dünyaya gəlib. Ailədə üç oğlan övladı olublar. Məlik Dadaşovdan iki yaş böyük qardaşı - Salman Dadaşov teatr və kino sahəsində tanınıb. O, əvvəl aktyor kimi çalışıb. Bir sıra filmlərə çəkilib. "Onun böyük ürəyi" filmində Oqtay rolu kino sənətində ən yaddaqalan rollarından biridir. Salman Dadaşov uzun müddət Sumqayıt teatrının rəhbəri olub.

Böyük qardaşı kimi Məlik Dadaşov da uşaq yaşlarından musiqi təhsili alıb. O, kontrabasda ifa edib. Orta məktəbi bitirdiyi vaxtlarda aktyorluq sənətinə marağı böyük olsa da, sənədlərini Tibb İnstitutuna (indiki Azərbaycan Tibb Universiteti) verib və qəbul olunub. Ancaq birinci kursdan təhsilini yarımçıq qoyub, Böyük Vətən müharibəsinə yollanıb. 1943-cü ildə kontuziya alıb. Xeyli müddət müalicə olunub. Sonra hərbi hissələrdə musiqiçi kimi fəaliyyət göstərib. 1945-ci ildə müharibədən qayıdıb. Gənc Tamaşaçılar Teatrında aktyor kimi işə başlayıb. Sonra Azərbaycan Teatr İnstitutuna (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) daxil olub, Adil İsgəndərovun kursunda oxuyub.

İyirmi üç yaşında Zaqatalada yeni açılmış teatrda işləyib. Əsas rolların ifaçılarından olub. Burada çalışan gənc aktrisa Sofiya Hüseynova ilə evlənib. 1946-cı ildə oğlu, gələcəyin tanınmış aktyoru - Rafael Dadaşov dünyaya gəlib. Bir müddət sonra Məlik Dadaşovla Sofiya Hüseynova ayrılıblar. Aktrisa oğlu Rafaeli tək böyütməli olub.

## Teatr aktyoru

Məlik Dadaşov Teatr İnstitutunda təhsilini 1950-ci ildə başa vurub. Məşədi Əzizbəyov adına Akademik Dram Teatrında işə başlaması sənət taleyinin ən böyük uğurlarından olub. Bu teatrın səhnəsində ilk dəfə H.Muxtarovun "Ailə namusu" pyesində çıxış edib.

Yaradıcılığının ilk dövrü Azərbaycan milli teatr sənətinin coşqun çağlarına düşüb. Məlik Dadaşov gənc yaşlarından Azərbaycan səhnəsinin görkəmli nümayəndələri ilə çalışıb. İstedadı ilə onların sırasında öz yerini müəyyənləşdirə bilib. Aktyorluq sənətinin şöhrətindən o da nəsibini alıb.

Ömrünün sonunadək teatr sənətindən ayrılmayıb. "On ikinci gecə", "Canlı meyit", "Fərhad və Şirin", "Sənsiz", "Nağıl başlananda" və daha neçə-neçə tamaşada yaratdığı rollar xalq tərəfindən rəğbətlə qarşılanıb. Aktyor kimi ən böyük arzusu isə Şekspirin daha bir qəhrəmanını - Kral Liri oynamaq olub.

Məlik Dadaşov aktyorluqla yanaşı, özünü rejissor kimi də sınayıb. Sabit Rəhmanın "Nişanlı qız" əsərini səhnələşdirib. Tamaşa böyük uğur qazanıb. "Arşın mal alan"ı səhnələşdirmək planı isə ona maneələr yaradılması səbəbindən baş tutmayıb.

## Kinoaktyor

Aktyorluq məharəti kinorejissorların da diqqətindən yayınmayıb. Onu filmlərə dəvət ediblər. Məlik Dadaşovun kino sahəsində yaradıcılıq yolu da, teatr sənətində olduğu kimi yalnız aktyorun özünə uğur gətirməyib, həm də bütövlükdə Azərbaycan incəsənətini zənginləşdirib. Aktyor həm səhnədə, həm də ekranda göründüyü ilk anlardan tamaşaçıların diqqətini cəlb edib.

Onlarla filmdə bir-birindən maraqlı rol alıb. Kinorejissor Əjdər İbrahimov aktyoru bir neçə filmində çəkib. "İyirmialtılar" və "Ulduzlar sönmür" filmlərində o, Məşədi Əzizbəyovun və Nəriman Nərimanovun real tarixi obrazlarını ekranda canlandırıb. Akademik Dram Teatrının səhnəsində dəfələrlə oynadığı "Ölülər" tamaşasındakı Şeyx Nəsrullaha ekran həyatını da Məlik Dadaşov verib. Kinorejissor Tofiq Tağızadə "Ölülər" pyesi əsasında çəkdiyi "O dünyadan salam" filmində də Şeyx Nəsrullah rolunu Məlik Dadaşova həvalə edib.

O, yalnız respublika miqyasında tanınmış sənətkar olmayıb. Azərbaycandan kənarda da şöhrət qazanıb. "Özbəkfilm"in istehsal etdiyi "Təyyarələr enmədi" filmində Yəhya, "Moldovafilm"in çəkdiyi "Dmitri Kantemir" ekran əsərində Vəzir, "Belarusfilm"də istehsal olunan "Müsahibə götürən adam" filmində Niyazxan rollarında çəkilib.

## Aktyorun "nifrət qazanmaq bacarığı"

Real həyatda olduğu kimi, səhnəyə qoyulan, ekranlaşdırılan əsərlərdə də yalnız müsbət qəhrəmanlar olmur. Mənfi rollar da var. Aktyorun vəzifəsi isə xarakterindən asılı olmayaraq, ona tapşırılan hər bir obrazı bacarıqla ifa etmək, tamaşaçını inandıra bilməkdir.

Məlik Dadaşovun oynadığı rolların əksəriyyəti mənfi qəhrəmanlardır. O, "Ölülər"də Şeyx Nəsrullahı, "Axırıncı aşırım"da Qəmlonu, "Dəli Kür"də Molla Sadığı və daha neçə-neçə mənfi obrazı böyük məharətlə canlandırmağa müvəffəq olub. Buna görə bəzən tamaşaçı tənqidləri ilə də qarşılaşıb. Ancaq oynadığı heç bir mənfi xarakterli rola görə aktyor "Fəryad" filmindəki erməni rolu qədər hiddətə düçar olmayıb.

"Fəryad" Azərbaycan xalqının çox ağır vaxtlarında - 1993-cü ildə ekranlaşdırılıb. Erməni işğalçıları tərəfindən şəhid edilən, yurdundan qovulan soydaşlarımızın dərdləri ilə bütün Azərbaycan yas içində olub. Belə bir vaxtda çəkilən filmdə erməni rolunda oynamaq aktyor üçün asan deyildi. Odur ki, Məlik Dadaşov əvvəlcə təklifə etirazını bildirib. Filmin rejissoru Ceyhun Mirzəyevin israrlı təkidi ilə axır ki, razılıq verib. Və elə bir tipik erməni obrazı yaradıb ki, hissə qapılan tamaşaçıları qulağı eşidə-eşidə onu söyüb, nifrətlərini dilə gətiriblər. Hətta bir gün Məlik Dadaşov instituta gedəndə "Molakan" bağının yanında onu görən bir qadın qışqırıb: "Ay camaat, bu adam ermənidi". Adamlar toplaşıb. Aktyor sənədlərini təqdim edəndən sonra ona inanıblar.

## Sənətkara xalq sevgisi

Azərbaycan kino sənətinin ən yaxşı nümunələrindən olan "Axırıncı aşırım" keçmiş Sovet İttifaqı məkanında keçirilən festivalda göstərildikdən sonra böyük şöhrət qazanıb. "Kişi rolunun ən yaxşı ifaçısı" mükafatı ilk dəfə eyni filmdə iki aktyora - Həsən Məmmədova və Məlik Dadaşova verilib. Amma böyük çətinliklərdən sonra... Çünki Qəmlo şura hökumətinin düşməni olmuşdu. Ermənilər də onu özlərinə düşmən sayırdılar. Odur ki, məsələ mübahisəli olub. Qəmlonun ifaçısının - Məlik Dadaşovun adı festivalın mükafatçıları siyahısına salınmayıb.

Deyirlər ki, "Axırıncı aşırım"da ən maraqlı, tamaşaçı rəğbəti qazanmış rollardan birini - Kərbəlayi İsmayılı oynayan Adil İsgəndərov söyləyib ki, Qəmlonu yaratdığına görə bu mükafat Məlik Dadaşova düşür. Baxmayaraq ki, onların arasında əvvəllər çox yaxşı münasibət olsa da, sonralar umu-küsü yaranmışdı...

Ümumiyyətlə, sənətdə qarşıdurmalar, bir-birinə maneələr yaratmağa cəhd göstərmələr hər zaman olub. Məlik Dadaşov da uzun çəkişmələrdən sonra Akademik Milli Dram Teatrını tərk edib. Ömrünün son illərində Səməd Vurğun adına Rus Dram Teatrında çalışıb. Məlik Dadaşovun ən yaddaqalan rollarından biri də bu teatrda səhnələşdirilən İsaak Babelin "Qürub" tamaşasındakı Mendel Krik rolu olub.

Rəhbərlik etdiyi dövrdə Rus Dram Teatrının repertuarı xeyli zənginləşib. Bu teatra yeni yaradıcı qüvvələr cəlb olunub. Ancaq Məlik Dadaşov yenə maneələrlə üzləşib. Ona bu teatrda çalışmağa imkan verməyiblər. Məlik Dadaşovu iki il böyük həvəslə işlədiyi Rus Dram Teatrından uşaqlaşdırmaq məqsədi ilə təqaüdə göndəriblər. Baş verənlər sənətkara ağır təsir göstərib. Altı ay xəstə yatıb. Sonra dram teatrına qayıdıb.

Həyat ona dərdlərin ən ağırını verib. Yetmiş yaşında övlad faciəsi yaşayıb. İkinci nikahdan olan qızı gənc yaşında xərçəngdən vəfat edib. Məlik Dadaşov bu dərdin ağrısı ilə söyləyib: "Mən artıq yaşaya bilməyəcəm"...

O, 1980-ci illərdən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində aktyor sənətindən dərs də deyib. 1996-cı il noyabrın 26-da Tədris Teatrının səhnəsində tələbələrinin diplom tamaşasının məşqləri gedirdi. Səhnəyə qalxaraq mizan göstərmək istəyən Məlik Dadaşov müvazinətini itirərək yıxılıb. Onu xəstəxanaya ağır vəziyyətdə çatdırıblar. Yetmiş iki yaşlı sənətkarın bu halına ürəyi altı gün davam gətirib... Amma huşu üstündə olsa da, danışa bilməyib. Qələm-dəftər istəyib və son istəyini yazıb...

Bütün yaradıcılığını Azərbaycan aktyor sənətinin inkişafına həsr etmiş Xalq artisti Məlik Dadaşov 1996-cı il dekabrın 2-də dünyasını dəyişib.

Məlik Dadaşovun Azərbaycan teatrının və kinosunun inkişafında xidmətləri unudulmazdır. Bu sənətə gələnlər onun tamaşalarda, filmlərdə yaratdığı, lent yazılarının yaddaşına köçürülmüş ifalarına baxıb aktyorluq öyrənirlər. Xalqın çox sevdiyi sənətkarlardan biri olan Məlik Dadaşovun oynadığı rollar maraqla baxılır. Onun canlandırdığı qəhrəmanların dilindən söylədiyi bir çox ifadələr isə bu gün də dillərdə əzbərdir.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***





# Azərbaycanın opera sənətçisi ilkə imza atıb

Əməkdar artisti Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Afaq Abbasova ilkə imza atıb.

Musiqisi Ottorino Respiginə, librettosu Alberto Doninə məxsus olan "Al Mulino" operası CD formasında yazılıb. İtaliyanın Triest şəhərində Cüzeppe Verdi adına Opera Teatrında yazılan əsərin baş rolunun Aniuskanın ifaçısı Afaq Abbasova olub.



Librettonun yeni quruluşunun müəllifi Paolo Rosato, məsləhətçi və dirijor isə Fabrizio Da Rosdur. Əməkdar artist Afaq Abbasova AZƏRTAC-a açıqlamasında belə bir ilkə imza atdığı üçün çox sevincli olduğunu bildirib. Onun sözlərinə görə, pandemiyadan öncə dinləyici kimi teatra gedib və sonra bu rola dəvət alıb. Aniuska rolunu ifa etməyi böyük məmnuniyyətlə qəbul edib. Hazır olan CD hələ ki, satışa buraxılmayacaq və dünya teatrlarına təqdim olunacaq. Gələcəkdə "Al Mulino" teatrlarda ifa olunan zaman bu disk hazır material kimi istifadə olunacaq.

Tamaşa 2022-ci ildə ilk dəfə Triest Opera Teatrında səhnəyə qoyulacaq.

# Vətəndaşı qorumaq milləti, dövləti qorumaqdır

Əvvəli 1-ci səh.

Dünyanın əksər coğrafiyalarından fərqli olaraq ölkəmiz son bir il yarımın timsalında öz uğurlarını ikinci bir düşmənlə mübarizə apararaq davam etdirmək kimi çətin vəzifə qarşısında qalmışdı. Azərbaycan koronavirus pandemiyasına qarşı həyəcan təbili çalan, heç bir tərəddüd etmədən dünyanı COVID-19-a qarşı mübarizədə həmrəyliyə çağıran ilk ölkələrdən biri idi. Azərbaycanın cəbhədə çaldığı qələbə böyük tarixi şərəf olduğu kimi, öz xalqını düşünmək, sevmək, hər bir vətəndaşın sağlamlığının əlahiddə bir dəyərə malik olduğunu bəyan etmək və bu yolda bütün zəruri tədbirləri görmək dövlət rəhbəri ilə xalq idealının eyni məna daşıdığı anlamına gəlir. Nəyi, nə vaxt, necə etməyin zərurətini dərindən mənimsəyən və bunu parlaq nümunə ilə göstərən Azərbaycan Prezidenti pandemiyaya qarşı aparılan fövqəladə xarakterli mübarizə timsalında xalqımızın humanizmini bütün dünyaya nümayiş etdirdi. Ölkəmizin pandemiyaya qarşı mübarizəsini əks etdirən zəngin xronologiyanı çoxlu misallarla daha ətraflı anlatmaq mümkündür. Məna və məntiq isə bütün hallarda eynidir: bu və ya digər ölkənin ən qiymətli sərvəti insandır, vətəndaşı qorumaq dövlətin ali vəzifəsidir və bu yolda lazım olan bütün tədbirlər görülmüşdür. Əslində, ölkəmizin hər sahə üzrə əldə etdiyi nailiyyətlərin başlıca stimulu məhz bu niyyətə, bu ideala sadiqlikdir.

Ötən ayın son günü - may ayının 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ümumdünya Səhiyyə Assambleyasının 74-cü sessiyasındakı çıxışı bizim ölkəmizdə insan sağlamlığına, hər bir vətəndaşımızın yaşamaq, ömür sürmək haqqına necə önəm verildiyini bir daha sübut edir. Prezident İlham Əliyevin yüksəksəviyyəli toplantıda etdiyi çıxış dərin məzmunu ilə seçilir və yığcam bir yazıda orada səslənən bütün istiqamətlərə toxunmaq çətindir.

Mən, sadəcə, iki-üç məqamla bağlı təəssüratlarımı bölüşmək istərdim. İştirakçıların böyük marağına səbəb olan



Prezidentin nitqi bir daha sübut etdi ki, pandemiya ilə mübarizə işinin effektiv təşkili üçün ölkəmizin bütün imkanları səfərbər olunmuşdur.

Əvvələn, amansız bir şəkildə tüğyan edən qlobal xarakterli yoluxmanın iqtisadiyyata mənfi təsirini imkan daxilində aradan qaldırmaq məqsədi ilə hökumət tərəfindən təxirəsalınmaz, sistemli tədbirlər görülmüşdür. Məsələn, COVID-19-un qəfil və gözlənilməz zərbələrinə məruz qalmış ölkə vətəndaşlarını və sahibkarlıq subyektlərini dəstəkləmək məqsədilə təxminən 2 milyard ABŞ dolları həcmində sosial-iqtisadi təşviq paketi təqdim olunmuşdur.

Pandemiya hər kəsi yaranmış şəraitə uyğunlaşmaqla yaşamağa məcbur edir. Xəstəliyin ilk mərhələsində təbabət çaşqın vəziyyətdə idi, təhlil və müşahidələr göstərirdi ki, pandemiyanın dünyaya şok təsiri hələ də ötməmişdir. Hər kəsə bəllidir ki, səhiyyənin insanlara tövsiyəsinin yalnız üç bəndi var idi - sosial məsafə saxlayın, əllərinizi yuyun və maska taxın. Sonra isə real təhlükənin qarşısını almaq üçün peyvənd əldə olundu. Azərbaycan Prezidenti sessiyadakı çıxışında vurğuladı ki, pandemiya ilə mübarizənin hazırkı mərhələsində əsas prioritet əhalinin vaksinasiyasıdır. Bu sahədə aparılan iş respublikamızda məsələyə necə ciddi yanaşıldığını göstərir. Ölkə rəhbərinin dediyi kimi, Azərbaycanda görülmüş müfəssəl tədbirlər nəticəsində əldə olunan nəticələr əvvəlki normal həyata qayıtmaq istiqamətində öz təsirini göstərmiş, karantin rejimi tədricən yumşaldılmışdır. Cari ilin yanvar ayının ortalarından etibarən ölkə ərazisində peyvənd kampaniyasına başlanmışdır. Belə ki 99,94 faiz "Sinovak", qalanı isə "AstraZeneca" və "Sputnic" olan 2 milyondan artıq peyvənd vətəndaşlara vurulub. Bu rəqəm əhalinin 20 faizini əhatə edir. 18 yaşdan yuxarı bütün vətəndaşlar könüllü şəkildə peyvənd oluna bilir, peyvənd olunan şəxslərə COVID-19 pasportları təqdim edilir.

Müşahidələrə əsasən deyə bilərik ki, ölkəmizdə pandemiya ilə əlaqədar aparılan maarifləndirmə işləri öz bəhrəsini gündən-günə daha çox verməkdədir. Əhali vaksinasiyaya könüllü şəkildə qoşulur, hətta bəzən mediada həkim məntəqələrində yaranan sıxlıqdan bəhs edən informasiyalar işıqlandırılır. Hər gün ölkənin bütün istiqamətlərində on minlərlə insan peyvənd olunur. Həyata keçirilən bütün tədbirlər təminat verir ki, ən yaxın müddətdə cəmiyyətimiz qəfil peyda olan xəstəliyə qarşı daha davamlı olacaq, xəstələnənlərin, vəfat edənlərin sayı kəskin şəkildə azalacaq, ölkəmiz bütün dünyanı çənginə alan bu bəladan azad olacaqdır.

Prezident İlham Əliyev çıxışında ölkəmizdə pandemiyaya qarşı mübarizənin planlı şəkildə aparılması, xəstəliyin əhaliyə mənfi təsirinin minimuma endirilməsi və vəziyyətin nəzarətdə saxlanılması ilə bağlı praktik tədbirlər barədə də fikirlərini tədbir iştirakçıları ilə bölüşüb.

Prezident İlham Əliyevin Ümumdünya Səhiyyə Assambleyasının 74-cü sessiyasındakı çıxışı bir daha əminlik yaradır ki, dövlətimizin problemə maksimum ciddi yanaşması, milli səhiyyəmizin gücü, dünya təbabətinin yeni təklifləri və ən başlıcası, xalqımızın xarakterini səciyyələndirən həmrəylik və məsuliyyət hissi pandemiyanın da mənfi təsirlərini qətiyyətlə aradan qaldıracaqdır.

***Təranə PAŞAYEVA,***
***"Loqos Psixoloji və Nitq İnkişaf Mərkəzinin rəhbəri, "Psixoloji Xidmət və Tədqiqatlar Mərkəzi" İctimai Birliyinin sədri, psixologiya üzrə fəlsəfə doktoru***

## Salyan Rayon İcra Hakimiyyəti 2021-ci ildə Salyan şəhər küçələrinin əsaslı təmiri işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

**Salyan şəhər küçələrinin əsaslı təmiri işlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının analoji işlərdə təcrübəsi, təmir-bərpa işləri üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Portal vasitəsilə ala bilərlər. Əlaqələndirici şəxs: Lalayev Mahir İdris oğlu, telefon: 021-255-50-23.

**İştirak haqqı: 400 manat**
**Təşkilat: Salyan Rayon İcra Hakimiyyəti**
**17 saylı Regional Xəzinədarlıq İdarəsi**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**Hesab: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Fond 7Y**
**Salyan Rayon İcra Hakimiyyəti**
**Hesab: AZ36CTRE00000000000002513131**
**VÖEN: 7000028611**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

1. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
2. Tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);
3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı;
4. İddiaçının (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

- *tenderdə iştirak etmək üçün Portala elektron müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə sənəd;*
- *tender təklifi (zərflərin açılışı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi dəyərində bank təminatı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təqdim olunmuş maliyyə hesabatının surəti;*
- *Dövlət Vergi Xidməti tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq işlər üzrə lisenziyasının olması;*
- *potensial imkanları barədə məlumatlar;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarından birinə aid olması ilə bağlı Dövlət Statistika Komitəsindən alınmış arayış;*
- *əmək reyestrindən işçilər barədə çıxarışlar.*

İddiaçılar (podratçılar) tenderdə iştirak etmək üçün göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **02 iyul 2021-ci il saat 12:00-a** qədər Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər.

Tender təklifi və bank zəmanətini isə **12 iyul 2021-ci il saat 12:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaq. İddiaçıların təklifləri **13 iyul 2021-ci il saat 12:00-da** elektron Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən 08 iyun 2021-ci il saat 11:00-da keçirilməsi nəzərdə tutulmuş 6/10/0,4 kV-luq xətlərində elektrik enerjisinin qəbul olunması, çevrilməsi və paylaşımı məqsədilə qurğuların satın alınması üzrə açıq tenderin vaxtı elektron satınalma Portalında yaranmış texniki problemlərə görə 11 iyun 2021-ci il saat 11:00-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tender təklifi və bank təminatını 10 iyun 2021-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

***Tender komissiyası***

## Azərbaycanda koronavirus infeksiyasından daha 221 nəfər müalicə olunaraq sağalıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 221 nəfər müalicə olunaraq sağalıb, 32 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 334 min 747 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 327 min 114 nəfər müalicə olunaraq sağalıb, 4945 nəfər vəfat edib. Aktiv xəstə sayı 2688 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 572 min 418 test aparılıb. Dünənki test sayı isə 4673-dür.

## Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 2 milyon 546 min 770-ə bərabərdir

İyunun 7-də Azərbaycanda yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 601 doza vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 334, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 267 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 2 milyon 546 min 770-ə bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 1 milyon 611 min 499, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 935 min 271 nəfərdir.




## Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya Publik Hüquqi Şəxs mebel və digər inventarların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlananlar Milli Observatoriyanın (012) 525-87-48 telofon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 09.06.2021-ci il saat 15:00-dək qəbul olunur.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq fondun əməkdaşlarının ixtisaslarının artırılması məqsədi ilə təlim (Praktik Risk Menecment) xidmətlərinin satın alınması üzrə kotirovka sorğusu elan edir

İddiaçılar satınalma prosedurunun predmetinə dair hazırlanmış əsas şərtlər toplusunu Sahibkarlığın İnkişafı Fondundan əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.
Təkliflər 2021-ci il 16 iyun saat 12:00-a qədər qəbul olunur.
Ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxs Zaur Məmmədova müraciət edə bilərlər.
Ünvan: Bakı şəhəri, Yasamal rayonu, A.M. Şərifzadə küçəsi, 172
Telefon: (012) 310 23 02
Fax: (012) 4323717; **e-mail: info@edf.gov.az**

***Tender komissiyası***

## FHN-in Dövlət Yanğın Nəzarəti Xidməti maarifləndirmə tədbirlərini davam etdirir

Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğın Nəzarəti Xidməti (DYNX) Muğan regional Dövlət Yanğın Nəzarəti İdarəsinin əməkdaşları tərəfindən "Aqroservis" ASC-nin Saatlı rayon filialında dənli və texniki bitkilərin yığılması, daşınması, saxlanması və emalı dövründə yanğın hadisələrinin qarşısının alınmasına dair növbəti maarifləndirmə tədbiri keçirilib.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki,



əvvəlcə kənd təsərrüfatı texnikalarına və əraziyə baxış keçirilərək yanğına qarşı mövcud vəziyyət, o cümlədən ilkin yanğınsöndürmə vasitələri ilə təchizat səviyyəsi və həmin vasitələrin yararlılıq vəziyyəti öyrənilib.

Sonra DYNX-nin əməkdaşları yanğın təhlükəsizliyinin təmin olunması üçün müvafiq tövsiyələr verərək maarifləndirici söhbətlər aparıblar.

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu tərəfindən 30.04.2021-ci il tarixdə elan edilmiş fondun daxili qaydalarının təkmilləşdirilməsi, əsasnamə və vəzifə təlimatlarının yenilənməsi və fəaliyyətinin qiymətləndirilməsi meyarlarının yaradılması üzrə məsləhət xidmətlərinin satın alınması ilə bağlı təkliflər sorğusu prosedurunda "Deloitte&Touche" MMAC qalib seçilmişdir və 01.06.2021-ci il tarixdə satınalma müqaviləsi bağlanmışdır, "İdarəetmənin avtomatlaşması üzrə yeni proqram təminatının hazırlanması və mövcud proqram təminatlarının vahid mərkəzə birləşdirilməsi" layihəsinin həyata keçirilməsində təhlil, layihələndirilmə, layihənin idarə edilməsi, İT və proqramlaşdırma sahəsində konsaltinq xidmətlərinin satın alınması üzrə təkliflər sorğusu prosedurunda "Deloitte&Touche" MMAC qalib seçilmişdir və 04.06.2021-ci il tarixdə satınalma müqaviləsi bağlanmışdır, "Fondun vəsaitlərinin dövriyyəsinə nəzarət proqramı"na texniki xidmətin satın alınması üzrə keçiilmiş təkliflər sorğusu prosedurunda fiziki şəxs Əhmədli Neman Telman oğlu qalib seçilmişdir və 01.06.2021-ci il tarixdə satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## "Ceyhun 1994" və "Sanqalan-M" MMC-nin direktoru barəsində cinayət işi məhkəməyə göndərilib

"Ceyhun 1994" və "Sanqalan-M" MMC-nin direktoru Ceyhun Qurbanzadənin qanunsuz əməlləri ilə əlaqədar aparılmış araşdırma üzrə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aparılmış ibtidai istintaqla Ceyhun Qurbanzadənin həmin vəzifədə işləyərkən direktoru olduğu müəssisələrin Ağsu Rayon İcra Hakimiyyəti, rayonun Kommunal Müəssisələr Kombinatı, Mənzil İstismar Sahəsi, "Yaşıllaşdırma və Abadlaşdırma" MMC və rayon icra hakimiyyəti başçısının Qaraqoyunlu kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi tərəfindən 2019-cu ildə keçirilmiş kotirovka sorğularında qalib elan edilməsi yolu ilə dövlət büdcəsindən ayrılmış ümumilikdə 31 min manat məbləğində pul vəsaitinin qanunsuz üsullarla müvafiq bank hesablarına köçürülüb nağdlaşdırmasına, iş həcmini şişirtməklə xeyli miqdar təşkil edən həmin məbləği mənimsəməsinə, eləcə də bu qanunsuz hərəkətləri törədə bilməsi üçün müvafiq informasiya resursuna bilə-bilə yalan məlumatlar daxil etməsinə əsaslı şübhələr müəyyən olunub.

İş üzrə toplanmış sübutlar əsasında Ceyhun Qurbanzadəyə Cinayət Məcəlləsinin 179.2.3-cü və 179.2.4-cü (mənimsəmə- şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə xeyli miqdarda ziyan vurmaqla törədildikdə), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan olunub və vurulmuş ziyan tam ödətdirilib. Cinayət işi baxılması üçün məhkəməyə göndərilib.

## B İ L D İ R İ Ş

"Azərenerji" ASC tərəfindən 02 aprel 2021-ci il tarixdə elan edilmiş İnformasiya texnologiya avadanlıqlarının servis xidmətlərinin satın alınması üzrə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilən açıq tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən "MİX PRO" MMC tenderin qalibi müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

“Azərişıq” ASC tərəfindən 20 aprel 2021-ci il tarixdə **“Müxtəlif elektrik hesablama avadanlıqlarının və informasiya mübadiləsi sistemlərinin”** satın alınması üzrə açıq tender üsulu ilə keçirilmiş tender müsabiqəsində Tender komissiyasının qərarına əsasən, “Life Elektroniks” MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə ƏDV daxil 494 373,27 AZN (dörd yüz doxsan dörd min üç yüz yetmiş üç manat 27 qəpik) məbləğində müvafiq alqı-satqı müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# “Bakı Metropoliteni” QSC Müxtəlif növ yük burazlarının və ilməklərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: **Müxtəlif növ yük burazlarının və ilməklərinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal)** elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız “ASAN ödəniş” vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalı** vasitəsilə adıçəkilən tender bölməsindən əldə edə bilərlər. Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: (012) 490-01-01.

**İştirak haqqı - 300 manat**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
2. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **30 iyun 2021-ci il saat 11:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **08 iyul 2021-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **09 iyul 2021-ci il saat 11:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# Şamaxı Rayon İcra Hakimiyyəti Şamaxı Şəhər Nümayəndəliyi Şamaxı şəhər küçələrinin abadlaşdırılması işinin satın alınmasına dair elektron satınalma elan edir

Elektron satınalmada iddiaçı qismində satınalmaların predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları və ya ASAN imzaları vasitəsilə daxil olaraq tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən malgöndərənlər iştirak haqqını ASAN pay vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə və müsabiqə üçün təkliflərini təqdim edə bilərlər.

Tenderdə iştirak haqqı 2000 manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
2. Tender təklifi;
3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı;
4. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış;
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti;
7. İddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd;
8. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;
9. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;
10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd.
11. İşin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatlar (subpodratçı cəlb edəcəyi təqdirdə)

İxtisas uyğunluğu sənədləri:

a) Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işlərinin icra edilməsi üçün lisenziya;
b) İddiaçının işlərin həyata keçirilməsi üçün maliyyə imkanlarının olması;
- Pul vəsaitlərinin hərəkəti haqqında hesabat;

c) Malgöndərənin müvafiq sahədə peşəkarlığı və təcrübəsi
- Təmir-tikinti-quruculuq işlərinə dair azı 3 illik iş təcrübəsi;

d) Malgöndərənin texniki imkanları;
- Balansında olan nəqliyyat vasitəsinin və ölçmə işlərində istifadə olunan avadanlığın kalibrovkası tipi və ya icarə müqavilələrinə dair sənəd və tenderin predmeti üzrə şirkətin zəruri əməkdaşlarının mövcudluğu.

Qeyd olunan sənədlər Azərbaycan dilində düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə, satınalan təşkilat tenderdə iştirak etmək istəyən malgöndərəni (podratçını) iddiaçı kimi qeydə alacaqdır.

Malgöndərənlər tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təkliflərinin açılışına 7 bank günü qalana qədər) **30.06.2021-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatını isə **08.07.2021-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **09.07.2021-ci il saat 11:00-da** Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

Dövlət satınalmalarının vahid internet Portalında texniki problem mövcud olduğundan “Bakı Metropoliteni” QSC tərəfindən 08 iyun 2021-ci il saat 11:00-da keçirilməsi nəzərdə tutulmuş Bakı Metropoliteninin III yeni (“Bənövşəyi”) xəttinə aid “Xocasən” elektrik deposunda inşa edilən Vestibül və Sərnişin platformasının yanğın siqnalizasiya sisteminin quraşdırılması işləri üzrə açıq tenderin vaxtı 11 iyun 2021-ci il saat 12:30-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün tender təklifi və bank təminatını 10 iyun 2021-ci il saat 12:30-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

Salyan Rayon İcra Hakimiyyəti tərəfindən “Salyan şəhər küçələrinin əsaslı təmiri” işlərinin satın alınması məqsədilə 19 aprel 2021-ci il tarixdə elan edilmiş açıq tenderin nəticələri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin AİBNDX-15/01-7/712s nömrəli məktubu əsas götürülməklə ləğv edilir.

***Tender komissiyası***

# Lənkəran Dövlət Universiteti Açıq Tender (e-tender) elan edir

LOT-1. LDU-nun 2 saylı tədris korpusunun həyətində 5 mərtəbəli yeni tədris korpusunun tikintisi işləri

Lənkəran Dövlət Universiteti büdcədənkənar vəsaiti hesabına açıq tender metodu tətbiq etməklə elektron satınalma vasitəsilə “LDU-nun 2 saylı tədris korpusunun həyətində 5 mərtəbəli yeni tədris korpusunun tikintisi” işlərinin satın alınmasını həyata keçirir.

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun öz tender təkliflərini **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etsinlər. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımı texniki, maliyyə imkanlara malik olmalıdırlar.

İddiaçılar **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

İddiaçılar aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba “ASAN ödəniş” sistemi ilə köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı LOT-1. 7000 (yeddi min) manat**
**Lənkəran Dövlət Universiteti**
**Hesab № AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**Kapital Bank ASC Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının sürəti;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının son bir ildəki (əgər daha az müddətdə fəaliyyət göstəribsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayışı;*
- *nizamnaməsi;*
- *qeydiyyatdan keçdiyi ölkə;*
- *rekvizitləri.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **30 iyun 2021-ci il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə **08 iyul 2021-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **09 iyul 2021-ci il saat 17:00-da** dövlət satınalmalarının vahid internet portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

# Şamaxı Rayon İcra Hakimiyyəti Şamaxı Şəhər Nümayəndəliyi Şamaxı şəhər küçələrinin asfaltlaşdırılması işlərinin satın alınmasına dair elektron satınalma elan edir

Elektron satınalmada iddiaçı qismində satınalmaların predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları və ya ASAN imzaları vasitəsilə daxil olaraq tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən malgöndərənlər iştirak haqqını ASAN pay vasitəsi ilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə və müsabiqə üçün təkliflərini təqdim edə bilərlər.

Tenderdə iştirak haqqı 2000 manatdır.

İştirak haqqı heçbir halda geri qaytarılmır.

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
2. Tender təklifi;
3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı;
4. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış;
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti;
7. İddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd;
8. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;
9. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;
10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd;
11. İşin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatlar (subpodratçı cəlb edəcəyi təqdirdə)

İxtisas uyğunluğu sənədləri:

a) Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işlərinin icra edilməsi üçün lisenziya;
b) İddiaçının işlərin həyata keçirilməsi üçün maliyyə imkanlarının olması;
- Pul vəsaitlərinin hərəkəti haqqında hesabat;

c) Malgöndərənin müvafiq sahədə peşəkarlığı və təcrübəsi;
- Təmir-tikinti-quruculuq işlərinə dair azı 3 illik iş təcrübəsi;

d) Malgöndərənin texniki imkanları;
- Balansında olan nəqliyyat vasitəsinin və ölçmə işlərində istifadə olunan avadanlığın kalibrovkası tipi və ya icarə müqavilələrinə dair sənəd və tenderin predmeti üzrə şirkətin zəruri əməkdaşlarının mövcudluğu.

Qeyd olunan sənədlər Azərbaycan dilində düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə, satınalan təşkilat tenderdə iştirak etmək istəyən malgöndərəni (podratçını) iddiaçı kimi qeydə alacaqdır.

Malgöndərənlər tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təkliflərinin açılışına 7 bank günü qalana qədər) 30.06.2021-ci il saat 11:00-a qədər, tender təklifi və bank təminatını isə 08.07.2021-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 09.07.2021-ci il saat 11:00-da Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 08.04.2021-ci il tarixli nömrəsində dərc edilmiş Azərbaycan Respublikası Mərkəzi Bankının Mərkəzi ofisinin və ərazi idarələrinin inzibati binalarında istismar olunan isitmə-soyutma-havalandırma, su-kanal sistem və avadanlıqlarına texniki xidmətin və müvafiq sahəyə uyğun zəruri mal-materialların satın alınması üzrə açıq tender ilə əlaqədar Tender komissiyasının 24.05.2021-ci il tarixli qərarına əsasən, “ESTET” MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri **MƏHƏRRƏM İBRAHİMOV, SİRAC ABIŞOV və ARİF ƏLİYEVİN** erməni terroru nəticəsində həlak olmalarından kədərləndiklərini bildirir və mərhumların ailələrinə dərin hüznlə başsağlığı verirlər.

Mərkəzi Seçki Komissiyasının sədri, professor Məzahir Pənahov AMEA-nın akademik H.Əliyev adına Coğrafiya İnstitutunun direktoru, akademik **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

AMEA-nın Aqrar məsələlər üzrə müşaviri, akademik Qərib Məmmədov ailəsi ilə birlikdə AMEA akademik H.Əliyev adına Coğrafiya İnstitutunun direktoru, akademik **RAMİZ MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5079
Sifariş 1025
Qiyməti 40 qəpik